## Uşaqlar və körpələr arasında vərəm çoxalıb

Müalicə olunan xəstəlikdir, lakin xəstə nəzarətsiz və müalicəsiz qalarsa ölümə səbəb ola bilər



**Dünyada vərəm nadir görülən xəstəlik kimi qəbul edilsə də, pulmonoloqlar bu xəstəliyi Azərbaycan üçün real təhlükə mənbəyi kimi görürlər.**

Mütəxəssislərin rəyinə görə, uşaqlar və hətta körpələr arasında vərəm çoxalıb. Bunun bir ucu COVİD-19 pandemiyasına toxunur. 2020-21-ci illərdə camaatın evdə qaldığı vaxtlarda vərəm üzrə müayinələr aparılmadığı üçün evlərdə, ailə üzvləri arasında yoluxma kəskin artıb.

(səh.7)

## Azərbaycanda təbii sərvətlərin elektron atlası hazırlanacaq



**"Təbii sərvətlərin elektron atlası hazırlanacaq".**

"Report"un Laçına ezam olunan əməkdaşı xəbər verir ki, bunu AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Ekoloji məsələlər üzrə İşçi Qrupunun iclasında deyib.

O bildirib ki, bu istiqamətdə təklif aidiyyəti qurumlara təqdim edilib: "Düşünürəm ki, bu atlasın hazırlanması mühüm töhfə olacaq".

❐ № 34 (5795) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 fevral 2023-cü il (cümə axşamı)




# Xocalıda soyumuzu qırdılar

## Bəşəriyyətin ən dəhşətli faciəsinin 31 ili yaxınlaşır

**Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, erməni qəsbkarlarının xalqımıza qarşı həyata keçirdikləri etnik təmizləmə siyasəti nəticəsində törədilən qanlı cinayətlər, qətliamlar arasında Xocalı soyqırımı xüsusi amansızlığına görə seçilir.**

Xocalı soyqırımı zamanı vaxtilə 7 min nəfərdən çox əhalinin yaşadığı şəhər bir gecədə yerlə-yeksan edilib. Qadın, uşaq və qoca demədən günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə qətlə yetirilib. Otuz bir ildir ki, xalqımız bu qanlı cinayətin mənəvi ağrısını, ağlasığmaz dəhşətlərini qəlbində, həyatında daşıyır. 44 günlük Vətən müharibəsində torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu.

(səh.4)




## Laçın yolunda humanitar fəlakət yoxdur

Avronest PA Ermənistanın qətnamələrini rədd etdi

**Avronest Parlament Assambleyasının (PA) Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən 10-cu sessiyası başa çatıb.**

**Sessiyada Milli Məclisi parlamentin komitə sədri Tahir Mirkişilinin rəhbərliyi ilə 6 deputat təmsil edib.**

10-cu sessiyanın yekun sənədinə Ermənistan nümayəndə heyəti tərəfindən dəyişikliklər təklif olunmuşdu. Dəyişikliklər "Laçın dəhlizinin açılması", "Dağlıq Qarabağın blokadadan çıxarılması", "Azərbaycan Ordusunun Ermənistan ərazisindən çıxarılması", "ATƏT Minsk qrupunun aktivləşdirilməsi" kimi çağırışları əhatə edirdi.

(səh.4)

## Səfərin tarixi açıqlanıb

Lavrov fevralın 27-28-də Azərbaycana səfər edəcək



**Rusiya xarici işlər naziri Sergey Lavrov 27-28 fevral tarixlərində Azərbaycana səfər edəcək.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova həftəlik brifinqdə deyib.

"Lavrov Azərbaycana rəsmi səfər edəcək. Səfər 22 fevral 2022-ci il tarixində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının birinci ildönümünün vaxtına salınıb. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla danışıqların aparılacağı gözlənilir", - o deyib.

(səh.2)

# Ermənistan danışıqlar masasına geri qayıtmalıdır

## Britaniya Azərbaycan və Ermənistanı dialoqu davam etdirməyə çağırıb




**Xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Avropa üzrə dövlət naziri Leo Dokerti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Böyük Britaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, müxtəlif sahələr üzrə əməkdaşlığın gələcək inkişaf perspektivləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Görüş zamanı neft, qaz, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, "yaşıl enerji"yə keçid istiqamətində əməkdaşlığın perspektivləri, təhsil və humanitar sahələr ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov ölkələrimiz arasında qarşılıqlı inam və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin dinamik şəkildə inkişaf etdiyini deyib. Rəsmi təmasların və yüksəksəviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir ölkələrimiz arasında enerji sahəsində əlaqələrin xüsusi əhəmiyyətini qeyd edərək Azərbaycanın təşəbbüsü və iştirakı ilə regionda həyata keçirilən irimiqyasli enerji layihələri haqqında ətraflı məlumat verib. Onların Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rolunu qeyd edib.

(səh.2)

# Rusiya Qarabağda tək qüvvə olmağa çalışır

## "Məgər Ruben Vardanyanı Qarabağ probleminin uzanması üçün Qarabağa gətirən Rusiya deyil?"



**Ermənistanın Qarabağ məsələsini sülh sazişinə bağlamaq cəhdləri əsassız və qanunsuzdur.** Çünki Qarabağ Azərbaycandır. Ermənistan, eləcə də onun qərbli himayədarları bunu birdəfəlik qəbul etməlidir. Bu fikirlərlə rusiyalı siyasi ekspertlər çıxış ediblər.

Onların fikrincə, İrəvanın Bakı ilə sülh sazişinin imzalanmasını uzatması Ermənistanın dövlətçiliyinin faciəvi sonluqla bitməsinə gətirib çıxaracaq. Qeyd olunub ki, Ermənistan ya Azərbaycanın sülh təklifini qəbul edəcək, ya da dövlətçiliyi faciəvi sonluqla bitəcək.

(səh.2)



## Orta məktəblərə direktor təyinatı çox uğursuzdur

**Paytaxtdakı 49 nömrəli "İntellekt" məktəb-liseyində valideynlərdən vəsait tələb olunmasına dair yayılan səs yazıları ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən müvafiq araşdırma aparılıb.**

Bu barədə "Tehsil.biz"ə BŞTİ-dən məlumat verilib.

Bildirilib ki, araşdırmanın nəticələrinə uyğun olaraq məktəb-liseyin direktoruna Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib:

"Belə hallara təkrar yol verildiyi halda daha ciddi tədbirlər görüləcəyi bildirilib.

(səh.7)

## Quru sərhədlərinin açılmasının heç bir təhlükəsi yoxdur

Bütün dünyada pandemiya ilə bağlı vəziyyət stabil olaraq qalıb



**Yenə gözləntilər özünü doğrultmadı. Daha doğrusu, yenə gözlərimiz yollarda qaldı.**

Hökumət xüsusi karantin rejiminin müddətini yenə uzatdı. Halbuki nə dünyada, nə də ölkəmizdə koronavirus təhlükəsi qalıb və nə hikmətdirsə, karantin rejimi ancaq quru sərhədlərinə şamil olundu. Maska tələbi yox, toy və yas məclisləri də həmişəki ampluadadır. AZAL-ın bahalı biletlərini almaq imkanında olan insanlar da xarici ölkələrə rahat səfər edə bilir.

(səh.3)

## Lerikdə zəlzələ olub



**Lerik rayonunda zəlzələ olub.**

Bu barədə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən (RSXM) bildirilib.

Qeyd edilib ki, zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yeraltı təkan yerli vaxtla saat 11:25-də Yardımlı stansiyasından 22 km cənub-şərqdə qeydə alınıb.

Maqnitudası 3.1, dərinliyi 27 km olan zəlzələ hiss edilməyib.

Xatırladaq ki, bu gün yerli vaxtla saat 06:25-də İmişli rayonunda da zəlzələ olub.



## Polşa səmalarında qara buludlar gəzir

Əziz Əlibəyli: "Əgər Putin iddia etdiyi kimi öz dünyasını qurmağa cəhd edəcəksə, o zaman ənənəvi üsulla - Polşanın bölüşdürülməsi ilə başlamalıdır"

(səh.2)



## İki illik missiya Avropanın Rusiyaya təhdid mesajıdır

Rövşən Məhərrəmov: "Ancaq bu missiya Azərbaycan üçün heç bir təhlükə kəsb etmir. Sayları yüz yox, lap min olsa da ölkəmiz üçün risk görmürəm"

(səh.5)



# Rusiya Qarabağda tək qüvvə olmağa çalışır

## “Məgər Ruben Vardanyanı Qarabağ probleminin uzanması üçün Qarabağa gətirən Rusiya deyil?”

**Ermənistanın Qarabağ məsələsini sülh sazişinə bağlamaq cəhdləri əsassız və qanunsuzdur. Çünki Qarabağ Azərbaycandır. Ermənistan, eləcə də onun qərbli himayədarları bunu birdəfəlik qəbul etməlidir. Bu fikirlərlə rusiyalı siyasi ekspertlər çıxış ediblər.**

Onların fikrincə, İrəvanın Bakı ilə sülh sazişinin imzalanmasını uzatması Ermənistanın dövlətçiliyinin faciəvi sonluqla bitməsinə gətirib çıxaracaq. Qeyd olunub ki, Ermənistan ya Azərbaycanın sülh təklifini qəbul edəcək, ya da dövlətçiliyi faciəvi sonluqla bitəcək. Rusiyanın “Nasionalnaya Oborona” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko APA-ya açıqlamasında Bakı ilə İrəvan arasında sülh sazişinin Prezident İlham Əliyev tərəfindən irəli sürülən beş prinsip əsasında mümkün olduğunu söyləyib: “Ona görə ki, Azərbaycan tərəfinin təklifləri beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq reallıqlara əsaslanır. Qarabağ məsələsini sülh sazişinə bağlamaq cəhdləri əsassız və qanunsuzdur. Çünki Qarabağ Azərbaycandır. Ermənistan, eləcə də onun qərbli himayədarları bunu birdəfəlik qəbul etməlidir. Ona görə də Ermənistan ya sülh sazişini imzalayacaq, ya da baş verə biləcək hadisələr Ermənistanın dövlətçiliyi üçün faciəvi sonluqla bitəcək”. Rusiyalı hərbi ekspertin fikrincə, Ermənistan hələ də öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir: “İrəvan üçtərəfli bəyanatları icra etmir. Soçi və Moskva razılaşmaları icra olunmayıb. Paşinyan ötən ilin sonunda Zəngəzur dəhlizini açmaqdan imtina edib. Baxmayaraq ki, bununla bağlı üzərinə öhdəlik götürüb. Ermənistanla Azərbaycanın sərhədləri hələ ki delimitasiya və demarkasiya olunmayıb. Onlar 30 il ərzində işğal altında saxladıqları minalanmış ərazilərin xəritələrini Azərbaycana təhvil verməyib. Ermənistan tərəfindən silahlı təxribatlar, anti-Azərbaycan kampaniyası davam edir. Bu fonda Ermənistan tərəfindən xoşməramlı iradə gözləmək çətindir. Ona görə də düşünürəm ki, diplomatiya ilə dəqiq cərrahiyyə-güc metodunun tandemi Ermənistanı sülhə məcbur etmək üçün ən optimal variantdır”. Rusiyalı siyasi ekspert Aleksey Naumov da hesab edir ki, Ermənistan reallığı qəbul etmək əvəzinə Qarabağ ermənilərinə yalan ümidlər verir. Reallıq isə ondan ibarətdir ki, Qarabağ erməniləri ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da həmin ərazidən getməlidirlər: ”Anlaşılandır ki, burada Fransa jandarmından ilhamlanan Paşinyanın addımlarına deyil, 2020-ci ilin müharibəsindən sonrakı dinamikaya baxmalıyıq. Bu dövr ərzində Ermənistan özünü beynəlxalq münasibətlərin aktiv iştirakçısı kimi nüfuzdan salıb. Separatçılara izah olunub ki, onların başqa yolu yoxdur. Laçın yolundakı ekoloji aksiya da bunu onlara əminliklə sübut edir. Bu müddət ərzində Ermənistan Rusiya qarşısında da hörmətini itirib. İrəvan daim vasitəçi və hansısa tərəfdaş axtarışındadır. İlham Əliyev bu ilin əvvəlində aydın şəkildə bəyan edib ki, sülh sazişi masa üzərindədir və bu saziş əbədi olaraq masa üzərində olmayacaq.

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Qarabağ məsələsinin Azərbaycan-Ermənistan sülh müqaviləsindən ayrılması məntiqi əslində doğru haldır. Ekspert vurğulayıb ki, Qarabağ Azərbaycanın ərazisi olduğu üçün buradakı məsələnin Ermənistanla razılaşdırılması doğru deyil:** ”Bu, Azərbaycanın daxili işidir və öz ərazisində yaşayan ermənilərlə Azərbaycan özü məsələni hansısa yolla həll etməyi planlaşdırır. Rusiya isə bu məsələdə qeyri-səmimi davranır. Rusiya əvvəldən Qarabağ məsələsini gələcəyə saxlamağı planlaşdırır ki, bu zaman ərzində Qarabağ ərazisində qalsın. Bu artıq o qədər məlum məsələdir ki, burada heç bir gizli məqamlar qalmayıb. Yəni sadəcə Paşinyan hökumətinin ziddinə gedərək Bakının xoşuna gələn açıqlama verilməsi məntiqi yanlışdır. Rusiya heç vaxt öz maraqlarını kiminsə kaprizlərinə görə qurmur. İmperiya maraqları Rusiyanı idarə edənlərin genlərindədir. Onlar bu fikirlə yatıb-qalxırlar. Rusiya Paşinyana görə Bakıya edilən jestin məsələnin həllinə kömək edəcəyini bilsəydi, bu təklifi dilinə belə gətirməzdi. Rusiya Qarabağda tək qüvvə olmağa çalışır ki, prosesləri oradan idarə etsin. Onillər idi ki, Azərbaycan ərazisinə soxulmaq istəyirdi. Buna hələlik qismən nail olub. Məgər Ruben Vardanyanı Qarabağ probleminin uzanması üçün Qarabağa gətirən Rusiya deyil?”.

**İsmayıl Qocayev**

# Səfərin tarixi açıqlanıb

## Lavrov fevralın 27-28-də Azərbaycana səfər edəcək

**Rusiya xarici işlər naziri Sergey Lavrov 27-28 fevral tarixlərində Azərbaycana səfər edəcək.**

**Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova həftəlik brifinqdə deyib.**



”Lavrov Azərbaycana rəsmi səfər edəcək. Səfər 22 fevral 2022-ci il tarixində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının birinci ildönümünün vaxtına salınıb. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla danışıqların aparılacağı gözlənilir”, - o deyib.

Zaxarova, həmçinin, Bakı şəhərində keçiriləcək dialoq zamanı ikitərəfli münasibətlərin bütün məsələlərinin, aktual regional və beynəlxalq problemlərin nəzərdən keçiriləcəyini qeyd edib.

O, habelə, Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il, həmçinin 31 oktyabr 2022-ci il tarixlərində imzalanmış üçtərəfli razılaşmalara da xüsusi diqqət yetiriləcəyini deyib.

”Xatırladım ki, bu sənədlər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasının ən mühüm elementi olaraq qalır. Onlar Cənubi Qafqazın sülh, stabillik və tərəqqi zonasına çevrilməsinə kömək etməlidir”, - Zaxarova vurğulayıb.

Onun sözlərinə görə, Bakıya səfərinin ikinci günü Rusiya xarici işlər naziri Rusiya-Azərbaycan Ekspert Şurasının iki ölkənin müttəfiqliyinin birinci ildönümünə həsr olunmuş plenar iclasında çıxış edəcək.

# Polşa səmalarında qara buludlar gəzir

## Əziz Əlibəyli: “Əgər Putin iddia etdiyi kimi öz dünyasını qurmağa cəhd edəcəksə, o zaman ənənəvi üsulla - Polşanın bölüşdürülməsi ilə başlamalıdır”

**ABŞ Prezidenti Co Bayden Ukraynadan sonra Polşaya səfər edib.**

**Polşaya səfəri zamanı ABŞ Prezidenti Co Bayden Varşavada əhalinin qarşısında çıxış edib.**

**O, çıxışında bir neçə məqama toxunub: ”Bu, İkinci Dünya Müharibəsindən sonra Avropanın ən böyük müharibəsidir. Rusiyanın addımları ABŞ, Avropa və NATO üçün bir sınaq oldu. Biz Ukraynaya kömək etməkdən yorulmayacağıq.**



Putin Avropanın NATO-dan çıxacağını düşünürdü, lakin əvəzində İsveç və Finlandiyanı NATO-ya qəbul etdik”. ”Amerika Birləşmiş Ştatları və Qərb dünyası rus mədəniyyətinə və tarixinə hörmətlə yanaşır. Biz heç vaxt rus xalqı ilə mübarizə aparmamışıq və aparmayacağıq. Əgər Rusiya ən azı bir NATO ölkəsinə hücum edərsə, bu, bütün bloka hücum kimi qiymətləndiriləcək. ABŞ Ukraynaya kömək etmək üçün dünyanın 50-dən çox ölkəsi ilə koalisiya yaradıb. Əgər Rusiya dayansa, bu, müharibənin sonu deməkdir. Əgər Ukrayna dayansa, bu, Ukraynanın sonu deməkdir. Biz qaranlığın deyil, işığın, köləliyin deyil, azadlığın tərəfindəyik”, - Bayden bildirib.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə şərhçi Əziz Əlibəyli bildirib ki, əgər Putin iddia etdiyi kimi öz dünyasını qurmağa cəhd edəcəksə, o zaman ənənəvi üsulla - Polşanın bölüşdürülməsi ilə başlamalıdır:** ”ABŞ Prezidenti Bayden gələcəyi naməlum Ukraynadan sonra müharibəni koordinasiya etdiyi Polşadadır.

Putinin imperiyanı - SSRİ-ni bərpa etmək üçün bu gün etdiyi tarixi çıxışına məşhur nitqi ilə cavab verdi. Bayden indi də Varşavadan Putinə meydan oxudu”.

Polşanın tarixi boyu bir neçə dəfə bölündüyünü deyən ekspert ən mühüm bölünmə hadisələrini xatırladıb: ”18-ci əsrin əvvəlində Polşa-Litva Birliyi üç müxtəlif dövlət tərəfindən paylaşıldı. 1772, 1793 və 1795-ci illərdə Rusiya, Prussiya və Avstriya arasında bağlanan üç ayrı bölünmə müqaviləsi ilə Polşa-Litva dövləti üçə bölünərək tarixdən silindi. Bu dövrdə Polşa 123 il ərzində işğalda qaldı.

I Dünya müharibəsi illərində Polşa ərazisi Almaniya İmperiyası və Avstriya-Macarıstan İmperiyası tərəfindən işğal edildi. Müharibənin sonunda Polşa yenidən müstəqil dövlət oldu və ərazisi xeyli genişləndi.

II İkinci Dünya müharibəsi illərində Polşa faşist Almaniyası tərəfindən işğal edildi və onun ərazisi də Sovet İttifaqına məxsus idi. Müharibənin sonunda Polşanın sərhədləri qərbə keçdi və ölkə sovet blokunun bir hissəsi oldu.

Bu gün Polşa öz tarixi sərhədlərinə yaxın müstəqil dövlət kimi mövcud olmaqda davam edir.

Amma müasir siyasət yenə Polşa səmalarında qara buludları gəzdirir”.

**Aygün Tahir**

# Ermənistan danışıqlar masasına geri qayıtmalıdır

## Britaniya Azərbaycan və Ermənistanı dialoqu davam etdirməyə çağırıb

**Xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Avropa üzrə dövlət naziri Leo Dokerti ilə görüşüb. Görüşdə Azərbaycan və Böyük Britaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, müxtəlif sahələr üzrə əməkdaşlığın gələcək inkişaf perspektivləri, habelə cari regional vəziyyət müzakirə olunub.**

Görüş zamanı neft, qaz, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, ”yaşıl enerji”yə keçid istiqamətində əməkdaşlığın perspektivləri, təhsil və humanitar sahələr ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov ölkələrimiz arasında qarşılıqlı inam və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin dinamik şəkildə inkişaf etdiyini deyib. Rəsmi təmasların və yüksəksəviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir ölkələrimiz arasında enerji sahəsində əlaqələrin xüsusi əhəmiyyətini qeyd edərək Azərbaycanın təşəbbüsü və iştirakı ilə regionda həyata keçirilən irimiqyasli enerji layihələri haqqında ətraflı məlumat verib. Onların Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rolunu qeyd edib. Böyük Britaniyanın şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən məmnunluq ifadə olunub.



### “Ermənistan destruktiv mövqeyindən çəkinməlidir”

Görüş zamanı tərəflər Ermənistan-Azərbaycan arasında normallaşma prosesinin, sülh sazişi üzrə danışıqların cari vəziyyəti, Laçın yolunda etirazların müxtəlif aspektləri üzrə müzakirə aparıblar. Nazir Ermənistan-Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə qarşı tərəfi məlumatlandırıb. Laçın yolu ətrafında yaranmış son vəziyyət barədə ətraflı məlumat verərək həyata keçirilən etirazların Laçın yolunun sui-istifadəsinə və qeyri-qanuni iqtisadi fəaliyyətə qarşı olduğunu, həmçinin blokada və humanitar vəziyyət ilə bağlı iddiaların heç bir əsasının olmadığı, bu çərçivədə ölkəmizin legitim tələbləri və təhlükəsizlik maraqları barədə məlumat verilib. Bununla yanaşı, qonaq ölkəmizin sülh sazişinin imzalanması təşəbbüsü, bu istiqamətdə səyləri barədə məlumatlandırılıb. Sülh sazişi üzrə dekabr ayında keçirilməsi nəzərdə tutulan danışıqlarda Ermənistanın iştirakdan imtina etməsinə və prosesə yaratdığı maneələrə baxmayaraq, ölkəmizin prosesə sadiq qalaraq sülh sazişi mətni üzrə şərhlərin mübadiləsini həyata keçirdiyi diqqətə çatdırılıb. Ermənistanın destruktiv mövqeyindən çəkinərək, danışıqlar masasına geri qayıtmasının zəruri olduğu vurğulanıb.

### “Azərbaycan-Böyük Britaniya münasibətləri dinamik inkişaf edir”

Böyük Britaniyanın dövlət naziri Leo Dokerti öz növbəsində ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu və Azərbaycan-Böyük Britaniya münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb. Bölgədə sülhə mane olan çətinliklərin aradan qaldırılmasının vacib olduğunu, bu istiqamətdə Birləşmiş Krallığın dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Britaniya Azərbaycanla ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. O, Azərbaycan-Böyük Britaniya münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb. Nazir, bölgədə sülhə mane olan çətinliklərin aradan qaldırılmasının vacib olduğunu, bu istiqamətdə Birləşmiş Krallığın dəstək göstərməyə hazır olduğunu bildirib.

Böyük Britaniyanın dövlət naziri Leo Dokerti bildirib ki, London tərəfləri, həqiqətən də, sülh prosesinin və danışıqların davam etdirməsinə çağırır, bunu təşviq edir: ”Biz inanırıq ki, irəli doğru getməyin ən yaxşı yolu bütün tərəflərin müsbət ortamda müzakirələr aparmasıdır. Biz artıq açıq şəkildə bildirmişik ki, bu proses davam edərsə, onun çoxlu dividendləri, faydası olacaq. Bu gün Azərbaycan hökumət rəsmiləri, nazirlərlə görüşümdə də bu mövzuda müzakirələrimizdən təsirləndim. Hər kəs sülhün olduğu gələcəyi istəyir. Böyük Britaniya olaraq biz bütün tərəfləri gələcək sülh prosesində səmimi şəkildə iştirak etməyə təşviq edir, çağırırıq. Və mən bugünkü səfərimdən çox təsirləndim”.

### “Britaniyanın minatəmizləmə üzrə təcrübəsini Azərbaycanla bölüşürük və bundan qürur duyuruq”

Leo Dokerti deyib ki, minatəmizləmə sahəsində Azərbaycanla birlikdə çox iş görülüb: ”Britaniyanın minatəmizləmə sahəsində zəngin təcrübəsi var. Biz bu təcrübəni Azərbaycanla bölüşürük və bundan qürur duyuruq. Regional vəziyyəti və problemli qonşuları nəzərə alsaq, Azərbaycan cəsarətli addım ataraq Ukraynaya humanitar yardım edib. Biz bunu yüksək qiymətləndiririk. Azərbaycan həmçinin Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Ölkəniz enerji və nəqliyyat sahəsində vacib rol oynayır”. O qeyd edib ki, Böyük Britaniya və Azərbaycan arasında əməkdaşlıq əvvəllər daha çox enerji resurslarına əsaslansa da, indi bu, müxtəlif sahələri əhatə edir və gələcəkdə də daha da şaxələnəcək. Nazir Azərbaycanın ”yaşıl enerji” potensialına da toxunaraq qeyd edib ki, artıq bu sahədə əməkdaşlıq başlayıb.

### “Çox mürəkkəb qonşuları olan Azərbaycan məsuliyyətlə hərəkət edir”

Britaniyalı nazir deyib ki, Azərbaycan və Böyük Britaniya arasında münasibətlər çox əladır, yüksək səviyyədədir: ”Bizim Azərbaycanla uzunmüddətli əlaqələrimiz var. Xüsusilə də neft-qaz sahəsində əlaqələrimizi qeyd edərdim. BP Azərbaycanda ən böyük xarici investordur. Uzun illər ərzində bu sahədə çox uğurlu əməkdaşlığımız olub. Lakin təbii ki, münasibətlərimiz yalnız bu sahəni əhatə etmir, digər sahələri qeyd edə bilərəm. Məsələn, təhsil, bərpaolunan enerji, digər biznes sahələri, inşaat və s. Bu gün Azərbaycanda bu sahədə fəaliyyət göstərən Britaniya şirkətində oldum. Bizim münasibətlərimiz çox vacib və uğurludur. Biz Britaniya olaraq etiraf edirik ki, Azərbaycanın geostrateji baxımdan çox vacib rolu var. Azərbaycan Avropanı enerji ilə təchiz edir. Azərbaycan İran və Rusiyanın arasında yerləşir, onun çox mürəkkəb qonşuları var, lakin çox məsuliyyətlə hərəkət edir. Biz Azərbaycanla mövcud münasibətlərimizi çox yüksək dəyərləndiririk. Azərbaycan çox dəyərli və etibarlı tərəfdaşımızdır”.

### “Hər kəs sülhün olduğu gələcəyi istəyir”

Leo Dokerti bildirib ki, irəli doğru getməyin ən yaxşı yolu bütün tərəflərin müsbət ortamda müzakirələr aparmasıdır: ”Biz artıq açıq şəkildə bildirmişik ki, bu proses davam edərsə, onun çoxlu dividendləri, faydası olacaq. Bu gün Azərbaycan hökumət rəsmiləri, nazirlərlə görüşümdə də bu mövzuda müzakirələrimizdən təsirləndim. Hər kəs sülhün olduğu gələcəyi istəyir. Böyük Britaniya olaraq biz bütün tərəfləri gələcək sülh prosesində səmimi şəkildə iştirak etməyə təşviq edir, çağırırıq. Və mən bugünkü səfərimdən çox təsirləndim”.

### “Qafqaz regionunda liderlər birlikdə oturub gələcək sülh üçün çalışa bilərlər”

Nazirin fikrincə, gələcək sülh əməkdaşlığa, deskalasiyaya və münasibətlərin normallaşmasına əsaslanır: ”İqtisadi inkişaf baş verəndə, hansı ki bunun üçün də geri qaytarılmış ərazilərdə minaların təmizlənməsi və yaşayışın bərpası lazımdır, bu, dayanıqlı sülh üçün imkan yaradacaq. Regional kontekstdə dəyişiklikləri, Putinin Ukraynada apardığı müharibəni nəzərə alsaq, düşünürəm ki, liderlər xalqları sülh içində yaşamağa cəsarətləndirə bilərlər. Məncə, insanların da istədikləri budur. Biz, həqiqətən də, ümid edirik ki, Qafqaz regionunda liderlər birlikdə oturub deskalasiya üçün, gələcək sülh üçün çalışa bilərlər, çünki bu, xalqların da istədiyi bir şeydir”.

**İsmayıl**



# Yeni dünya düzəni qurulur, Rusiya rol almayacaq

## ABŞ və Qərb bütün dünya üzərində genişmiqyaslı hərbi-siyasi əməliyyat aparır

**Rusiya Prezidenti Vladimir Putinin çıxışı Qərbdə bomba effekti verib. Putin deyib ki, Ukraynadakı xüsusi əməliyyat Rusiyanın müdafiəsi və nasist təhlükəsini aradan qaldırmaq üçün başlayıb. O, Rusiyanın addım-addım qarşısında duran vəzifələri ardıcıl şəkildə həll edəcəyinə əmin olduğunu qeyd edib. Bildirib ki, Rusiya Ukrayna böhranını dinc yolla həll etmək üçün əlindən gələni edib:**

"Lakin Rusiyanın arxasından tamamilə fərqli ssenari hazırlanıb". Rusiya Prezidenti Ukrayna münaqişəsi ilə bağlı aparılan Minsk razılaşmaları ilə bağlı da danışıb. Onun sözlərinə görə, Qərbin Donbasda sülh arzusu ilə bağlı verdiyi vədlər qəddar saxtakarlığa və yalana çevrilib. Putin Qərb ölkələrini fırıldaqçılıqla məşğul olmaqda ittiham edib. Deyib ki, Kiyev nüvə silahı əldə etməyə cəhd edib: "Kiyev və Qərb arasında hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri və digər texnikanın tədarükü ilə bağlı danışıqlar hələ xüsusi əməliyyat başlamazdan əvvəl aparılıb. Ukrayna Qərbin əsarətindədir, onu böyük müharibəyə hazırlayıblar". Rusiya liderinin bəyanatına reaksiya özünü çox da gözlətməyib. ABŞ Prezidentinin milli təhlükəsizlik müşaviri Sallivan deyib ki, heç kim Rusiyaya hücum etmir. Rusiyanın Ukrayna və ya başqası tərəfindən hansısa hərbi təhdid altında olması fikrində absurdluq var. Digər qərbli siyasətçilər də bənzər fikir səsləndiriblər. Xatırladaq ki, NATO Baş katibi də Y.Stoltonberq də Putinin çıxışını "Rusiyanın müharibənin yeni mərhələsinə hazırlığı" kimi dəyərləndirmişdi. Məlumat üçün deyək ki, Rusiya rəhbəri ABŞ Prezidenti Co Baydenin Ukrayna səfərindən bir gün sonra çıxış edib.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Co Baydenin Kiyevə və Polşaya səfərləri zamanı verdiyi bəyanatlar böyük önəm daşıyır. Həmin bəyanatlarda vurğulandı ki, Ukrayna ordusu əks-hücum əməliyyatına başlayacaq. Ekspert deyib ki, qarşıda dünyanı olduqca ağır günlər, aylar, hətta illər gözləyir:** "Ağ Ev sahibi Ukrayna savaşının hələ uzun müddət davam edəcəyinin anonsunu verdi. Eyni zamanda Prezident Co Bayden onu da bildirdi ki, yaxın beş il ərzində yeni dünya düzəni qurulacaq və bəşəriyyətin növbəti onilliklər üçün gələcək taleyi dəqiqləşməyə başlayacaq. Bütün bunlar onu göstərir ki, ABŞ və Qərb bütün dünya üzərində genişmiqyaslı hərbi-siyasi əməliyyat aparır. Üstəlik, yeni dünya düzənində indiki Rusiyaya rol ayırmaq niyyəti də yoxdur. Belə vəziyyətdə əsasən iki variantın ön plana çıxa biləcəyi ehtimal olunur. Birinci variantın tərəfdarları hesab edirlər ki, Rusiyanı dünyadan təcrid edib, öz sərhədləri içərisinə sıxışdırılması Qərbin strateji maraqları üçün tamamilə yetərlidir. Digərləri isə Rusiyanın tamamilə parçalanaraq, dünya xəritəsindən silinməsinin vacibliyində israr edirlər. Təbii ki, ikinci variant həm radikal, həm də bütün dünya üçün daha təhlükəli hədəfdir. Çünki parçalanmış Rusiya böyük bir coğrafiyada xaos və uzunmüddətli humanitar fəlakət təhlükəsi vəd edir. Üstəlik, Rusiya coğrafiyası ümumiyyətlə, nəhəng silahlı münaqişə məkanına çevrilə bilər. Nəhayət, onu da nəzərə almaq lazımdır ki, Rusiyanın parçalanması minlərlə nüvə başlığına nəzarətin itirilməsi təhlükəsini də vəd edir".

**E.Xalidbəyli vurğulayıb ki, bütün bunları nəzərə aldıqda, Ukrayna savaşının dünya üçün real təhlükə mənbəyinə çevrilmə ehtimalı tamamilə inandırıcı görünür:** "Üstəlik, Kreml də Rusiya üçün nəzərdə tutulan bu iki variantın heç birisi ilə barışmaq niyyətində deyil. Əksinə, Kremlin son davranışları və Prezident Vladimir Putinin son açıqlamaları Rusiyanın ən radikal müqavimət variantlarına əl ata biləcəyini göstərir. Belə ki, Rusiya nüvə silahı ilə bağlı bütün beynəlxalq konvensiyalardan çıxdığını artıq rəsmən bəyan edib. Digər tərəfdən, Prezident Vladimir Putinin nüvə silahına malik olan dövlətin savaşda məğlubiyyətinin mümkün olmadığını vurğulaması da açıq təhdiddir. Yəni Kreml sahibi Rusiyanın Ukrayna savaşında məğlub edilməsinə cəhdlər reallığa yaxınlaşarsa, son anda nüvə müharibəsinin qaçılmaz olacağını qabardır. Belə anlaşılır ki, Kreml Rusiyanı xilas etmək üçün bütün dünyanı batırmağa belə hazırdır. Eyni zamanda hazırda Rusiya Ukrayna savaşını qlobal müharibəyə çevirmək istiqamətində də müəyyən cəhdlər etməyə çalışır".

Analitikə görə, Kremldə ümid bəsləyirlər ki, əgər Ukraynaya dəstək olan ölkələr özləri birbaşa müharibəyə qoşulmaq məcburiyyətində qalsalar, üzləşəcəkləri fəlakətli situasiyanın qarşısında geri çəkilməyə məcbur olarlar: "Ona görə də Ukrayna savaşının daha geniş coğrafiyaya, xüsusilə də Avropaya sıçrama ehtimalını heç bir halda, istisna etmək olmaz. ABŞ siyasi dairələri də bu reallığı artıq nəzərə almağa başlayıblar. Prezident Co Baydenin Ukrayna savaşını başladıqlarına görə Kreml sahibi Vladimir Putini və Rusiya siyasi elitasını beynəlxalq məhkəmə ilə hədələməsi də qətiyyən təsadüfi deyil. Bu hədələmə ilə Rusiya siyasi elitasında parçalanmaya və ziddiyyətlərə yol açmaq niyyəti nəzərə çarpır. Bütün bunları nəzərə aldıqda, yaxın günlərdə Ukrayna savaşı ətrafında bütün dünya üçün daha təhlükəli mərhələyə keçidin baş verə biləcəyi qətiyyən istisna deyil".

**İsmayıl Qocayev**

# "Heydər Əliyev deyirdi ki, köklü sualınız varsa..."

## Tural Museyibov: "Mənim mediaya olan həvəsim o dövrdən başladı"



**"Heydər Əliyev bizi yetişdirirdi. Mənim mediaya olan həvəsim o dövrdən başladı".**

**Bunu "Şərq"ə Ulu Öndərlə bağlı xatirələrini bölüşən tanınmış jurnalist, Baku TV-nin baş redaktoru Tural Museyibov deyib.**

O bildirib ki, Heydər Əliyevə arxalandıqları üçün heç kəsdən çəkinməyiblər: "Hətta biz Naxçıvanda ondan müsahibə götürmək üçün müraciət etdik. Lakin dedilər ki, siz ona söz deyə bilməzsiniz. Mən isə "Biz deyərik, siz də görərsiniz" söylədim. Çünki Heydər Əliyevin özü bu şəraiti yaratmışdı. Biz dərdimizi ona danışırdıq və hər kəs görürdü ki, bütün jurnalistlərin Ulu Öndərlə fikrini bölüşmək imkanı var. O buna çox böyük imkan yaradırdı. Hətta səfərlərdən qayıtdıqda yorğun olmasına baxmayaraq, hər zaman brifinq keçirirdi və bizə deyirdi ki, köklü sualınız varsa, verin. Yəni bizi formalaşdırırdı. Biz zaman keçdikcə düşünürdük ki, ona dolğun cavab ala biləcəyimiz suallar verək. Biz onun qarşısında olanda hər kəs sual verməyə can atırdı. Heydər Əliyev isə sualları cavablandırmaqdan sanki həzz alırdı. Hətta xatırlayıram ki, böyük bir dövlətin generalları gəlib ölkə başçılarının Heydər Əliyevdən məsləhət istədiyini demişdi. Biz onunla fəxr edirdik. Ulu Öndərin qarşısında olmaq belə qürurverici idi".

**T.Museyibovun sözlərinə görə, Ulu Öndər jurnalistlərə öz doğması kimi yanaşırdı:** "Heydər Əliyevin Ağcakənddə çox gözəl bir çıxışı var idi. O vurğuladı: "Gün gələcək, Azərbaycan bayrağı Zəngəzurda dalğalanacaq". Hətta o, bayram çıxışı zamanı bildirmişdi: "Vaxt gələcək, biz Qarabağda oturub qələbədən danışacağıq". O günlər artıq gəlib. Mən əminəm ki, artıq Heydər Əliyevin ruhu şaddır. Cənab Prezident İlham Əliyevin sayəsində Qarabağın, Şuşanın azad edilməsini Ulu Öndər də hiss etdi. Allah Heydər Əliyevə rəhmət etsin".

*Qeyd edək ki, Prezident İlham Əliyevin qərarı ilə 2023-cü il Heydər Əliyev ili elan edilib.*

**Nihat Müzəffər**

# "Bu təxribatlar gözlənilən idi"

## Fərəc Quliyev: "Ermənistandan daha çox bu ölkəni oynadanlar meydanda oynayır"



"Xankəndidən qovulmuş 15 min insan aksiyada yeni şüarlar səsləndirməlidir"

**Ermənistan silahlı qüvvələri sərhəddə və Qarabağda növbəti dəfə təxribata əl atıblar. Erməni tərəfi Ordumuzun Tovuzun Ağdam yaşayış məntəqəsi və Naxçıvanın Sədərək rayonu istiqamətlərində yerləşən mövqelərimizi snayperdən və müxtəlif çaplı digər atıcı silahlardan fasilələrlə atəşə məruz qoyub.**

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdəki qeyri-qanuni erməni silahlı dəstələri Kəlbəcər, Şuşa və Xocavənd rayonu istiqamətlərində yerləşən mövqelərimizə atəş açıblar. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb və düşmən susdurulub. Ekspertlərin fikrincə, Avropa İttifaqının "mülki missiyası"nın Ermənistana gəlişi fonunda silahlı qüvvələrin aktivləşməsi təsadüfi deyil. Görünür, təlimat Kremldən deyil, Fransa Prezidenti Emmanuel Makronun ofisindən verilib. Hesab edilir ki, Ermənistan təxribatlar həyata keçirməklə, Avropa İttifaqının anti-Azərbaycan bəyanatlar hazırlamasına nail olmağa çalışır. Yəni hərbi yolla Azərbaycana təzyiq edə bilməyən rəsmi İrəvan Fransa ilə birgə siyasi yolla təzyiq planını işə salmaq istəyir.

**Erməni təxribatını "Şərq"ə dəyərləndirən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev bildirib ki, ekofəalların Laçın yolunda təşkil etdikləri və aylardır davam edən aksiyalarda şüarları dəyişməyin zamanıdır. Partiya rəhbərinin sözlərinə görə, Xankəndidən qovulmuş 15 min insan aksiyada yeni şüarlar səsləndirməlidir:** "Onlar "biz evimizə qayıdırıq" şüarını dilə gətirməlidir. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli sazişin 4-cü bəndinə əsasən, erməni silahlılarının bölgədən çıxarılması və 9-cu bəndə görə, oradan qovulmuş Azərbaycan türklərinin geri dönüşü iddialarını təmin etmək üçün təzyiqlərimizi artırmalıyıq. Əvvəlcədən demişdim ki, Avropa İttifaqının, Fransanın polis və hərbçilərinin Azərbaycan sərhədinə göndərilməsi ilə vəziyyət mürəkkəbləşəcək. Bu təxribatlar gözlənilən idi. Ona qədər müəyyən addımlar atılmalıydı. Ancaq indi də gec deyil. Vurğuladığım məsələlərin üzərinə gedilməlidir. Qarabağdakı proseslərin yenidən 1988-ci il səviyyəsinə qayıtmasına imkan verməməliyik. Bölgədə ona bənzər proseslər gedir. Ermənilər təhlükəli şüarlarla çıxış edirlər və təxribatlar törədirlər. Atəşin pozulmasında həm Rusiyanın, həm də Qərbin əli var. Daha doğrusu, ortaq maraqları var. Rusiya Ermənistana təzyiq göstərir ki, Moskvanın başı üstündən bölgəyə kənar qüvvələr gətirməsin. Ona görə də özünə bağlı qüvvələri motivasiya edərək təxribata əl ata bilər. Digər yandan, təxribat Qərbə də sərf edir. Bunlar iddia edir ki, "baxın, regiona gəlməyimiz zərurətdir, çünki orada vəziyyət gərgindir və s". Söhbət ondan gedir ki, indi bölgədə yaranmış status-kvo həmin güclərə sərf etmir. Oyundan kənarda qaldıqları üçün təzyiq metodlarını işə salırlar, yəni qüvvələr bir-biri ilə oynayır. Ermənistandan daha çox bu ölkəni oynadanlar meydanda oynayır".

F.Quliyev hesab edir ki, çox soyuqqanlı şəkildə rusların və ermənilər imza atdığı üçtərəfli sazişə istinad edərək ərazilərimizdən dərhal erməni silahlılarının çıxarılmasını reallaşdırmalıyıq: "Daha sonra əhalimizin ora geri qayıtmasını təmin etməliyik. Məskunlaşma olmadan Qarabağda problemləri həll etmək çətin olacaq. Çünki əhalimiz orada olarsa, onları qorumaq üçün polisimiz, hərbçimiz də bölgəyə daxil olmalıdır. Mülki idarəetmə bizə keçməli və öz ərazilərimizdə suverenliyimiz bərpa edilməlidir. Bu məsələlərdə cəld tərpənməliyik. Anti-terror əməliyyatı qaçılmazdır. Nəzərə alaq ki, anti-terror əməliyyatı dünya üçün sürpriz olmayacaq. Çünki Münhendə dövlət başçımız tərəfindən bildirildi ki, Ermənistan kapitulyantdır və Qarabağda baş verənlər Azərbaycanın daxili işidir. Hətta Prezident irad tutdu ki, beynəlxalq təşkilatlar "Dağlıq Qarabağ" ifadəsini işlətməsinlər. Bizim inzibati ərazi bölgümüzdə belə söz yoxdur. Azərbaycanın daxili işinə heç kim qarışa bilməz. Bu mesajlardan sonra işimizi görə bilərik. Çəkinməyə ehtiyac yoxdur. Rusiyanın başı kifayət qədər qarışıqdır. Fransa və Almaniyanın 5-10 polisi də bizə təsir göstərə bilməz. Əgər təhdid olunuruqsa, təhdid nöqtələri bizim üçün legitim hədəflərdir. Kim nə deyirsə, desin, artıq sərt üzümüzü göstərməyin vaxtıdır. Boş buraxsaq, ermənilər 1988-ci il sindromunu diriltməyə çalışacaq".

**İsmayıl Qocayev**

# Quru sərhədlərinin açılmasının heç bir təhlükəsi yoxdur

## Bütün dünyada pandemiya ilə bağlı vəziyyət stabil olaraq qalıb



**Yenə gözləntilər özünü doğrultmadı. Daha doğrusu, yenə gözlərimiz yollarda qaldı. Hökumət xüsusi karantin rejiminin müddətini yenə uzatdı. Halbuki nə dünyada, nə də ölkəmizdə koronavirus təhlükəsi qalıb və nə hikmətdirsə, karantin rejimi ancaq quru sərhədlərinə şamil olundu. Maska tələbi yox, toy və yas məclisləri də həmişəki ampluadadır. AZAL-ın bahalı biletlərini almaq imkanında olan insanlar da xarici ölkələrə rahat səfər edə bilir.**

Quru sərhədlərinin bağlı qalması isə ancaq əhalinin kasıb təbəqəsinin qonşu ölkələrə gediş- gəlişini əngəlləyir. 3 il olacaq ki, insanlar doğmalarını, el-obalarını ziyarət edə bilmir. Xaricdə oxuyan tələbələr imkansızlıqdan yay, qış tətilində Vətənə qayıda bilmir. Aztəminatlı vətəndaşın övladını ildə bir neçə dəfə təyyarə ilə səfərə göndərməyə maddi imkanı çatmır. Nə yazıq ki, bunun acı təcrübəsini daha iki həftə əvvəl yaşadıq. Biletlər baha olduğu üçün tətildə qardaş Türkiyədən Azərbaycana gələ bilməyən, zəlzələyə qurban gedən 4 gəncin tabutu ailəsinə təhvil verildi. Halbuki AZAL bir az insaflı, müvafiq qurumlar bir az duyarlı olsa, o tələbələr analarının dizinin dibində olacaqdı. Bu qədər itkilər, narazılıqlar fonunda xüsusi karantin rejimini uzatmaq nəyə lazımdır?

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycanın ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il mayın 1-i saat 06:00-dək uzadılıb.

**İqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə açıqlamasında quru sərhədlərin açılmasının indiki reallıqda çox böyük sosial sifariş olduğunu deyib. İqtisadçının sözlərinə görə, hazırda quru sərhədlərin bağlı saxlanması üçün ciddi arqumentlər yoxdur. Əgər sərhədlərin qapalı qalmasının bizim bilmədiyimiz bir səbəbi varsa, bu, mütləq açıqlanmalıdır:**

"Uzun müddətdir ölkədə həm yoluxma sayında, həm də sağalanlarla xəstələr arasındakı nisbətdə müsbət tendensiya, eləcə də ölüm sayında kəskin azalma müşahidə edilir. Buna rəğmən tutarlı bir səbəb göstərmədən xüsusi karantin rejimi uzadılır. Aydın məsələdir ki, səbəb pandemiya deyil. Quru sərhədlərin bağlı qalması Azərbaycan kimi ölkələrdə əhalinin həyat tərzinə, məişətinə ciddi problem yaradır.İnsanlar daha aşağı qiymətə daha keyfiyyətli mal və xidmətlərə çıxış əldə edirdilər. Bu imkanlar tamamilə əldən çıxıb. Quru sərhədlərinin bağlı olmasına görə, üçüncü ildir ki, insanlar qazanc yerlərini itirib. Kasıb təbəqə doğmalarını görməyə gedə bilmir. Bu vəziyyət heç dövlətə, iqtisadiyyata da sərfəli deyil. Həm dövlətin, həm də vətəndaşların iqtisadi mənfəəti baxımından karantin rejiminin uzadılması zərərdir.".

Azərbaycana gələn turistlərin böyük faizi quru sərhədlərimizin olduğu ölkələrin payına düşür. Yəni Azərbaycana gələn hər 10 turistin 7-sinin vətəndaşlığı olduğu ölkə ilə quru sərhədlərimiz var. Bu baxımdan, quru sərhədlərin açılması ölkəyə daha çox turistin gəlməsinə səbəb olmaqla real sektora dəstək ola bilər.

Hava nəqliyyatı ilə turistik səfərlər quru yolla gediş-gəlişi heç vaxt kompensasiya edə bilməz. Qiymət, xərclər arasındakı fərq o qədər böyükdür ki, təyyarə reyslərinə üstünlük verilməsini düşünmək belə absurddur. Quru sərhədlər açılsa, sərhədyanı bölgələrdə də hərəkətlilik yaranacaq, iqtisadi vəziyyət normallaşacaq".

*Həkim-infeksionist Mərdan Əliyev isə deyib ki, quru sərhədlərinin açılmasının tibbi və epidemioloji baxımdan heç bir təhlükəsi yoxdur:* "Bütün dünyada pandemiya ilə bağlı vəziyyət stabil olaraq qalıb. Xüsusilə də Azərbaycanda və bizimlə sərhədi olan qonşu ölkələrdə vəziyyət stabildir. Yəni quru sərhədlərin açılması, əsasən qonşu ölkələrlə gəliş-gedişin olması deməkdir. Sərhəd ölkələrdə də pandemiya təhlükəsi olmadığı üçün quru sərhədlərin açılması tibbi baxımdan təhlükəli hesab oluna bilməz. Nəzərə alaq ki, bütün dünya ilə təyyarə ilə gediş-gəlişimiz var. Təyyarə yolunun açılması daha təhlükəlidir, nəinki quru sərhədlərin".

**Şəymən**




# Xocalıda soyumuzu qırdılar

## Bəşəriyyətin ən dəhşətli faciəsinin 31 ili yaxınlaşır

**Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, erməni qəsbkarlarının xalqımıza qarşı həyata keçirdikləri etnik təmizləmə siyasəti nəticəsində törədilən qanlı cinayətlər, qətliamlar arasında Xocalı soyqırımı xüsusi amansızlığına görə seçilir. Xocalı soyqırımı zamanı vaxtilə 7 min nəfərdən çox əhalinin yaşadığı şəhər bir gecədə yerlə-yeksan edilib. Qadın, uşaq və qoca demədən günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə qətlə yetirilib.**

Otuz bir ildir ki, xalqımız bu qanlı cinayətin mənəvi ağrısını, ağlasığmaz dəhşətlərini qəlbində, həyatında daşıyır. 44 günlük Vətən müharibəsində torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Artıq Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib. Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik ”böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə ardıcıl şəkildə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə siyasəti aparıblar. 1990-cı illərin əvvəllərində Xocalıya qədər ermənilər Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər. Hələ faciədən dörd ay əvvəl, yəni 1991-ci il oktyabrın sonundan Xocalıya gedən bütün avtomobil yolları bağlanmış və şəhər faktiki olaraq mühasirəyə alınmışdı. Yanvarın 2-dən Xocalıya elektrik enerjisi də verilmirdi və bu yaşayış məntəqəsinin Azərbaycanın digər bölgələri ilə bütün əlaqələri kəsilmişdi, yeganə nəqliyyat vasitəsi yalnız vertolyot idi. 1992-ci ilin yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən atılan raketlə partladıldı, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu. Bundan sonra isə Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1991-ci ilin sonunda Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və azərbaycanlılar yaşayan digər strateji əhəmiyyətə malik kəndlər ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. 1992-ci il fevralın 12-də Şuşanın Malıbəyli və Quşçular kəndlərində törədilmiş qarət və qırğınlar nəticəsində təkcə Malıbəyli kəndində 50 nəfər öldürülüb, onlarla insan yaralanıb və əsir götürülüb. 1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələri və Xankəndidəki 366-cı motoatıcı alay Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olub. 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülüb, onlardan 80 nəfəri qətlə yetirilib. Öldürülənlərdən 10-u qadın, 8-i uşaqdır. Ümumilikdə, Qaradağlı 1988-1992-ci illərdə 305 dəfə düşmən hücumuna məruz qalmışdı. Bu, Xocalıya aparan yolun başlanğıcı idi. Qaradağlı faciəsinə amansızlığın miqyasına görə ikinci Xocalı da deyirlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək Xocalını yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı və yandırıldı, insanlar isə xüsusi qəddarlıqla qətlə yetirildi. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılanlar çoxluq təşkil edirdi. Xocalıdakı özünümüdafiə qüvvələri son nəfərinə, son gülləsinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Qüvvələr nisbətinin qeyri-bərabər olduğu bu döyüşlər şəhəri müdafiə edən insanların göstərdiyi böyük qəhrəmanlıq, fədakarlıq nümunəsi idi. Xocalıya hücum zamanı erməni kəndlərinin mühasirəsində qalmış şəhərin 3000 nəfərədək silahsız mülki əhalisi düşməndən xilas olmaq üçün şəhəri tərk etdi. Çox təəssüf ki, o dövrdə Xocalıya heç bir kömək olmadığından həmin əhalinin demək olar ki, böyük bir hissəsi erməni vəhşiliyinin qurbanı oldu.

Ümumilikdə Xocalı soyqırımı nəticəsində şəhərin 5379 nəfər sakini zorakılıqla qovuldu. 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qaldı. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil. 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı, 8 ailə tamamilə məhv edildi. 130 uşaq valideynlərdən birini. 25 uşaq isə valideynlərinin hər ikisini itirdi, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca işgəncə verilməklə vəhşicəsinə öldürüldü.

Uzun illərdir ki, Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatıdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparıb. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Milli Məclis Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib. Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. Eləcə də, Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, bu soyqırımına obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atılır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl işlər görülür. Bütün bunların nəticəsidir ki, indiyədək 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-nin 23 ştatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul edib. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatında və Türk Dövlətləri Təşkilatında Xocalı soyqırımının kəskin şəkildə pislənilməsini ehtiva edən qətnamə və bəyanatlar qəbul olunub.

Qeyd etmək lazımdır ki, Ermənistan 30 il ərzində işğalda saxladığı Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirib. Münaqişə zonasından xeyli uzaqda da dinc əhaliyə qarşı ardıcıl surətdə terror-təxribat aksiyaları törədib. Aparılmış istintaq və məhkəmə təhqiqatları zamanı terror aktlarının və işgəncələrin Ermənistanın xüsusi xidmət orqanları, erməni terrorçu təşkilatları və separatçı qurumlar tərəfindən törədilməsi sübuta yetirilib. Xocalı vəhşətindən sağ qurtulmuş, lakin cəhənnəm kimi əsirlik, girovluq həyatı yaşamış Xocalı sakinlərinin ifadələrindən də bunu görmək mümkündür.

Ələmdar Abbasov 26 fevral 1992-ci il tarixində girov götürülüb və 28 mart 1992-ci ildə azad edilib. İfadəsində bildirib ki, iki gün qarlı meşədə ac-susuz yol axtarandan sonra ermənilərin yaşadığı Dəhraz kəndinə gəlib çıxıblar. Kəndin yaxınlığında əllərində avtomat silahlar olan Ermənistan hərbiçiləri onları girov götürüblər: ”Hərbiçilərin arasında əvvəllər Sumqayıtda yaşamış erməni Serjik də var idi. Əvvəlcə üst-başlarımızı axtardılar. Sonradan məlum oldu ki, elə həmin gecə onun həyat yoldaşı da girov götürülüb. Sonra onları Dəhraz kəndindəki böyük bir tövləyə aparıb və iki gün orada saxlayıblar. Fermada 150 nəfər girov saxlanılırmış. Orada Xocalı camaatına görünməz dərəcədə zülm edib, uşaqları, qadınları, qocaları döyərək təhqir edib, ac-susuz saxlayıblar. Baş verənləri anlamayan uşaqların dəhşətdən gözləri böyümüşdü. Orada Ermənistan hərbçiləri 13 yeniyetmə oğlanı valideynlərindən zorla ayıraraq naməlum istiqamətdə apardılar”. Sonra onu Xankəndi şəhərinə apararaq Milis idarəsinin təcridxanasına yerləşdiriblər. Təcridxanada onlarla yanaşı, digər əsir-girovlar da saxlanırmış. Onlardan 56 nəfəri Xocalı şəhərinin, qalanları isə 17 fevral 1992-ci il tarixdə girov götürülmüş Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri idi. Girovların saxlandığı tikilinin pəncərəsinin şüşələri olmadığı üçün bayırla içəridəki temperaturda heç bir fərq yox imiş. Əslində isə şüşələri ermənilər bilərəkdən vurub sındırmışdılar. Orada milislər Ə.Abbasovdan soruşublar ki, ”Qarabağ Azərbaycanındır, yoxsa Ermənistanın?”. ”Azərbaycanındır” cavabını aldıqdan sonra xüsusi təyinatlı milis nəfərinin dördü də ayağa qalxaraq onu vəhşicəsinə təpikləyiblər. O qədər vurublar ki, huşunu itirib. Sonra Ə.Abbasovu bayıra çıxarıb soyundurublar. Huşu özünə gələndən sonra yenidən təpiklə döyüb, siqaret yandırıb közünü bədəninə basıblar. Orada İrəvandan gəlmiş, hərbi geyimdə olan Manvel adlı erməni Ə.Abbasovu armaturla döyüb, bədəninin hər tərəfinə ağır zərbələr vurmuşdu”.

Göyçək Abbasova isə 1992-ci il fevral ayının 25-də girov götürülmüş, 28-də azad edilmişdi. İfadəsində bildirmişdi ki, girovların arasında 13 qadın da olub. Onları Əsgəran rayonuna aparıb 12 metr uzunluğu olan zirzəmiyə salıb, iki gün ac-susuz saxlayıb, qadınların başına hər cür oyunlar açıblar. Yalnız uşaqlara acından ölməmək üçün bir parça çörək və neftli vedrədə su veriblər. Ayın 28-də onları buraxacaqlarını deyərək, Ağdam istiqamətindəki posta gətirib, azad ediblər. Ancaq aralarında olan 3 nəfər gənc gəlini isə buraxmayıblar. Onlardan birinin adı Elza idi. Ermənilər girovlara deyirmişlər ki, sizin hamınızı qıracağıq”.

**İsmayıl**

# Sorğunun nəticələri gələcəyi göstərir

## Ən önəmli məsələ yaşları 18-24 arasında olanların 84 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanmasıdır




**Sosial Tədqiqatlar Mərkəzi Qərbi Azərbaycan İcmasının fəaliyyəti və ”Qayıdış Konsepsiyası” ilə bağlı cəmiyyətin münasibətini öyrənmək məqsədilə rəy sorğusu keçirib. İctimai rəy sorğusunda respondentlərə ”Prezident Qərbi Azərbaycana (İrəvan, Zəngəzur və Göyçə mahalına) qayıdışla bağlı yeni hədəfləri elan etdi.**

Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanırsınız” sualı ünvanlanıb. Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Ümumi nəticələr insanların 74.6 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inandığını göstərib. Sorğu nəticəsini gender aspektinə görə təhlil etdikdə, kişilərin 79 faizi, qadınların isə 71 faizi qayıdışın baş tutacağına inandığını bildirib. Hər iki qrupun tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanması bu istiqamətdəki dinamikanın müsbət seyri baxımından əhəmiyyət təşkil edir. Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycana qayıdış strategiyası çərçivəsində cəmiyyətin milli özünüdərk və soy-kökünə bağlılığını öyrənmək baxımından yaş qrupları da mühüm amildir. Sorğuda iştirak edən 18-24 yaş qrupunda olan respondentlərin 84 faizi Qərbi Azərbaycana qayıdışın baş tutacağına inandığını ifadə edib. Yekun nəticənin yüksək olması vətənpərvərlik və milli ruhun təcəssümünü göstərir.

**Millət vəkili Sahib Alıyev sorğunu dəyərləndirərkən bildirib ki, Sosial Tədqiqatlar Mərkəzinin Qərbi Azərbaycana qayıdışla bağlı keçirdiyi sorğu göstərdi ki, rəyi öyrənilənlərin dörddə üçü bunu mümkün sayır. Onların az qala yarısı, 46,5 faizi isə tam əmindir ki, biz öz yurd yerlərimizə dönəcəyik:** ”Açıq deyək ki, bu əminlik ilk növbədə müzəffər Ali Baş Komandanımızın ortaya qoyduğu iradədən və dövlətimizin qüdrətdindən doğur. Sorğunun nəticələri içərisində mənim ən önəmli saydığım yaşları 18-24 arasında olanların 84 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanmasıdır. Bu rəqəm istər-istəməz Münhen Konfransında Prezident İlham Əliyevin 44 günlük savaşın aparıcı qüvvəsi olan həmin nəslin təmsilçiləri haqda dediklərini yada salır: ”Cavan olduqları və Ermənistan o torpaqları işğal etdikdə hələ anadan olmadıqları üçün heç zaman görmədikləri torpaqlara qayıdan və oraları işğaldan azad edən bir nəsil yetişdirirdik”. Bəli, bu sorğu da Azərbaycanda tarixi ədalətsizliklə nəinki barışmayan, onun nəticələrini də aradan qaldırmağa hazır olan bir nəslin yetişdiyini təsdiqləyir. Üzümü onlara tutub deyirəm ki, Qərbi Azərbaycanda görüşənədək!”.

**İsmayıl Qocayev**

# Laçın yolunda humanitar fəlakət yoxdur

## Avronest PA Ermənistanın qətnamələrini rədd etdi




**Avronest Parlament Assambleyasının (PA) Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən 10-cu sessiyası başa çatıb.**

**Sessiyada Milli Məclisi parlamentin komitə sədri Tahir Mirkişilinin rəhbərliyi ilə 6 deputat təmsil edib.**

10-cu sessiyanın yekun sənədinə Ermənistan nümayəndə heyəti tərəfindən dəyişikliklər təklif olunmuşdu. Dəyişikliklər ”Laçın dəhlizinin açılması”, ”Dağlıq Qarabağın blokadadan çıxarılması”, ”Azərbaycan Ordusunun Ermənistan ərazisindən çıxarılması”, ”ATƏT Minsk qrupunun aktivləşdirilməsi” kimi çağırışları əhatə edirdi.

Layihələrin qəbul olunması üçün Ermənistan parlamentinin spikeri və Xarici İşlər Nazirinin müavini Avronest Parlament Assambleyasının iştirakçılarına videomüraciət ediblər.

Azərbaycan nümayəndə heyəti üzvlərinin həm ikitərəfli görüşlərdə göstərdikləri səylər, həm də komitə və plenar iclaslardakı çıxışlarda gətirdikləri arqumentlər nəticəsində Ermənistan nümayəndə heyətinin bütün layihələri Assambleya nümayəndələri tərəfindən rədd edilib.

”Beynəlxalq tədbirlərdə regionda dayanıqlı sülhün formalaşdırılması üçün konstruktiv mövqe çox önəmlidir. Ancaq Moldovanın paytaxtı Kişineu şəhərində təşkil edilən Avronest Parlament Assambleyasın 10-cu plenar sessiyasında və eləcə də komitə iclaslarında iştirak edən Ermənistan nümayəndə heyəti sülhə və regionda əməkdaşlığa xidmət göstərmir. Onlar daha çox Laçın yolunun ”bağlanması”, Qarabağda ”humanitar fəlakətin” olması kimi əsassız çıxışlara fokuslanıblar”.

Bu sözləri millət vəkili Vüqar Bayramov bildirib. O, deyib ki, Ermənistan deleqasiyası ”Laçın dəhlizinin açılması”, ”blokadasının götürülməsi”, ”Azərbaycan ordusunun Ermənistan ərazisindən çıxarılması”, ”ATƏT-in Minsk qrupunun fəallaşması” kimi əsassız qətnamələr hazırlayıb təqdim ediblər. Deputatın sözlərinə görə, onların hamısı səsvermədə rədd edilib: ”Azərbaycan nümayəndə heyətinin həm ikitərəfli görüşlərdə göstərdikləri səylər, həm də komitə və plenar iclaslardakı çıxışlarda gətirdikləri arqumentlər nəticəsində Ermənistan nümayəndə heyətinin bütün layihələri Assambleya nümayəndələri tərəfindən rədd edilib. Ermənistan deleqasiyası nəinki siyasi komitədə, hətta enerji təhlükəsizliyi komitəsində də Laçın yolunda vəziyyət və digər əsassız məsələləri gündəmə gətirib. Fərqli profilli komitələrdə feyk siyasi bəyanatlar oxumaq ondan xəbər verir ki, Ermənistan tərəfi regionda sülhün əldə edilməsində hələ də maraqlı deyil. Regionun inkişafı isə dayanıqlı sülhdən çox asılıdır”.

**İsmayıl**

# "Ölkə başçısı mesaj verir verir ki..."

## Asif Nərimanlı: “Azərbaycan terraktın arxasında kimin dayandığını bilir”

**Prezident İlham Əliyev fevralın 18-də Münhendə televiziya kanallarına müsahibəsində bildirib ki, terror hadisəsindən sonra terrorçunun İran mediasına müsahibə verməsi faktı onun İran isteblişmentinin bəzi qolları tərəfindən göndərilənlərdən biri olduğunu təsdiqləyir:**

”Digər qəribə məsələ o idi ki, iki gündən sonra o, əqli çatışmazlığı olan insan kimi elan edildi. Bu ekspertizanı onlar dərhal necə keçirə bildilər? Bu, onu ədalət mühakiməsindən yayındırmaq üçün atılmış bir addım idi. Buna görə İran hökuməti şəffaf istintaq aparmalıdır, bizə bu barədə məlumat verilməlidir, terrorçu cəzalandırılmalıdır. Lakin ən vacibi odur ki, terrorçunu göndərənlər, Azərbaycana qarşı bu qəddar aktı törətmiş İran isteblişmentinin nümayəndələri ədalət mühakiməsi qarşısına çıxarılmalıdır. Yalnız bundan sonra biz münasibətlərin normallaşması haqqında danışa bilərik”.



**Səfirliyimizə olan hücumdan sonra terrorçunun kanallara çıxarılması və ardınca xəstəxanaya yatırılmasının rejimin planı olduğunu sübut etdiyini deyən siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, burada aldadıcı məqam hadisədən sonra İran Xarici İşlər Nazirliyinin etdiyi canfəşanlıq idi:** ”Ümumiyyətlə, həmin şəxsi xəstəxanaya yerləşdirmək, onu cəzadan yayındırmaq deməkdir. Terraktın arxasında isə rejimin hansısa qanadı dayandığı görünür. Elə düşünürəm ki, bu, SEPAH tərəfindən təşkil edilib. Çünki hazırda İranda hakimiyyətin ötürülməsi prosesi gedir. Xüsusən də, etirazlardan sonra hansı qanadın üzə çıxacağı uğrunda mübarizə başlayıb. Xamenei dövründən sonra isə SEPAH hakimiyyəti öz əlində cəmləşdirməyə çalışır”.

Analitikin sözlərinə görə, görünür, rəsmi Bakıda bu barədə məlumatlar var: ”Yəni ölkə başçısı rəsmi mesaj verir ki, Azərbaycan terraktın arxasında kimin dayandığını bilir. Əslində mesajda ”məsələ təkçə terrorçunun yox, onun arxasında dayanan qüvvələrin cəzalandırılmasıdır və yalnız bununla Azərbaycan-İran münasibətləri düzələ bilər” fikri çatdırılır. Çünki rejimin tərkibindəki qanad zərərsizləşdirilmədiyi təqdirdə, Azərbaycanın səfirliyinin və konsulluğunun təhlükəsizliyinə heç kəs zəmanət verə bilməz. Hadisənin arxasındakı qüvvələr cəzalandıqdan sonra rəsmi Bakı əmin ola bilər ki, İran hakimyyəti, doğrudan da, münasibətlərin normallaşmasında maraqlıdır və terraktın arxasında dayanmır. Amma proses rejimin nəinki hadisənin arxasındakı qanadı, heç terrorçunun özünü belə mühakimə etmək istəmədiyini göstərir. Bu isə qarşıdakı dövrdə Azərbaycan və İran arasındakı gərginliyi daha da aktivləşdirəcək”

**Nihat Müzəffər**

# İki illik missiya Avropanın Rusiyaya təhdid mesajıdır

Rövşən Məhərrəmov: “Ancaq bu missiya Azərbaycan üçün heç bir təhlükə kəsb etmir. Sayları yüz yox, lap min olsa da ölkəmiz üçün risk görmürəm”

**Cənubi Qafqaz yenidən gərgin dönəmini yaşayır. Avropa İttifaqının iki illik ”mülki missiyası”nın Azərbaycan-Ermənistan sərhədində fəaliyyətə başlaması mövcud gərginliyi bir qədər də artırıb. Rusiya tərəfi Aİ-nin missiyasına qarşı çıxaraq bunu regionda gedən proseslərə kobud hərbi müdaxilə kimi dəyərləndirib. Tərkibində fransalı hərbçilərin də təmsil olunduğu iki illik missiyanın fəaliyyətinə rəsmi Bakı da razılıq verməyib və əsaslı narahatlıqlarını dilə gətirib. Bir neçə gün öncə Münhendə Azərbaycan və Ermənistan rəhbərliyi arasında iki görüş keçirilsə də, ötən gün erməni tərəfi növbəti dəfə təxribata əl ataraq Naxçıvan və digər dörd rayonumuzu atəşə tutub.**

Bölgəmizdə cərəyan edən proseslərlə bağlı ”Şərq”in budəfəki müsahibi ehtiyatda olan polkovnik, Müdafiə Nazirliyinin Hərbi Polisinin keçmiş rəisi Rövşən Məhərrəmovdur. Polkovnik qəzetimizə açıqlamasında Aİ-nin missiyası, Qərb-Rusiya qarşıdurması, Azərbaycan-Ermənistan arasındakı sülh danışıqları və erməni təxribatı ilə bağlı maraqlı məqamlara toxunub...

**- Rövşən müəllim, Avropa İttifaqının yüz nəfər keçmiş hərbçilərdən ibarət ”mülki missiya”sı Ermənistanda fəaliyyətə başlayıb. Rusiya ilə yanaşı, rəsmi Bakı da bu missiyaya etirazını bildirirdi. Qərbin sərhəddəki missiyası Azərbaycan üçün nə dərəcədə təhlükəli sayılır?**

- Fransanın Paşinyan hökuməti ilə razılaşmasından sonra bir müddət əvvəl Azərbaycan-Ermənistan sərhədinə iki aylıq missiya göndərilmişdi. İndiki missiya isə iki illik müddətə göndərilib. Qərb ”mülki missiya” adlandırsa da, heyətin tərkibindəkilərin demək olar ki, hamısı keçmiş hərbiçilər və polislərdir. Ancaq bu missiya Azərbaycan üçün heç bir təhlükə kəsb etmir. Sayları yüz yox, lap min olsa da, ölkəmiz üçün risk görmürəm. Azərbaycan Ordusu çox güclüdür və sərhədlərimiz, ərazi bütövlüyümüz, suverenliyimiz mükəmməl şəkildə qorunur. Bütün təhdidlərə layiqli cavab vermək iqtidarındayıq. Söhbət ondan gedir ki, beynəlxalq qanunlara əsasən, hansısa bir dövlətin digər ölkənin sərhədində missiya təşkil etməsi mütləq qarşı tərəflə razılaşdırılmalı idi. Biz bu missiyanın sərhədlərimizdə fəaliyyətinə razılıq verməmişik. Ermənistan birtərəfli qaydada missiyanı öz ərazisində yerləşdirib. Monitorinq mərkəzi yaradılıb və ofisin açılışı edilib. Avropanın bəzi dövlətlərinin nümayəndələri orada prosesə nəzarət edəcəklər. Missiyanın əsas fəaliyyəti prosesə ümumi nəzarət etmək və baş verənlərlə bağlı Qərbi məlumatlandırmaqdır. Bizi narahat edən məqamlardan biri odur ki, Azərbaycan Ordusu erməni təxribatına cavab olaraq düşməni susdurduqda missiya bunu ”Azərbaycan tərəfindən atəşkəsin pozulması” kimi təqdim edə bilər. Lakin Aİ-nin missiyası Azərbaycandan daha çox Rusiyanı narahat edir. Çünki Qərb və NATO-nun məqsədi Moskvanı bölgədən uzaqlaşdırmaqdır. İki illik missiya Avropanın Rusiyaya təhdid mesajıdır. Avropa deyir ki, ”biz də Cənubi Qafqazdayıq, özü də Ermənistanın əliylə”. Nikol Paşinyan isə bunu ona görə dəstəkləyir ki, planlarında Rusiyadan ayrılmaq və Qərbə inteqrasiya etmək var. Ermənistanda müxaliflər, ”Qarabağ klanı”nı təmsil edənlər Rusiya tərəfdarı olsa da, Paşinyan Kremlə etibar etmir. Əlbəttə, Rusiya bunu cavabsız qoymayacaq.

**- Rusiyanın Aİ-nin missiyasına və dolayı yolla Moskvanı təhdid etməsinə cavabı necə olacaq?**

- Söhbət Ermənistan hökumətinin cəzalandırılmasından gedir. Rusiya XİN rəsmisi Mariya Zaxarova Paşinyan hakimiyyətinə yönəlik çox sərt açıqlamalar verdi. Nəzərə alaq ki, Ermənistan siyasi-iqtisadi və hərbi baxımdan birbaşa Rusiyadan asılıdır. Ölkədə Rusiyanın hərbi bazası var. Həm də Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Təsəvvür edin, KTMT üzvü olan bir ölkə NATO üzvlərinin nümayəndələrini öz ərazisində yerləşdirir. Rusiya bunu qəbul etməyəcək və gərginlik artacaq. Onsuz da Rusiya-Ermənistan arasında son dönəm ciddi gərginlik müşahidə olunur. Ermənistanda 102 saylı hərbi bazası olan Rusiya Paşinyan hökumətini cəzalandırmaq üçün istənilən addımı ata bilər. Məsələn, hakimiyyət çevrilişi edə bilər, yaxud ağlımıza gəlməyən təzyiq metodlarından istifadə edər.

**- Qarabağdakı separatçılar arasında da müəyyən proseslər yaşanır. Ruben Vardanyanın Moskvaya gedişi və dönüşü, separatçı Araik Arutyunyanla qarşıdurması diqqət çəkir. Sizcə, Qarabağda nələr baş verir və separatçıları kimlər yönləndirir?**



- Ruben Vardanyandan öncə separatçı Araik Arutyunyan Moskvaya getmişdi. Vardanyanın birbaşa Rusiyanın adamı olduğu, Kremldən idarə olunduğu bəllidir. Əslində Araiki də ruslar təlimatlandırır. Hər iki separatçı Kremlə yeni təlimatlarını almağa getmişdi. Bilirsiz ki, aylardır eko-fəallarımız Laçın yolu üzərində dinc etiraz aksiyası keçirirlər, öz tələblərini dilə gətirirlər. Həmçinin aksiya iştirakçıları Laçın yolu vasitəsilə qanunsuz gediş-gəlişə, separatçılara silah-sursat daşınmasına mane olurlar. Azərbaycan tərəfi Qarabağda yaşayan mülki ermənilərlə, o cümlədən oradakı separatçı ünsürlərlə bağlı konkret və qəti mövqeyini dəfələrlə bəyan edib. Vurğulanıb ki, rəsmi Bakı hansısa separatçılarla, kənardan göndərilən şəxslərlə heç vaxt danışıq aparmayacaq. Separatçıların Qarabağa gedən Laçın yolunun ”bağlı” olması və bölgənin ”blokadaya” salınması ilə bağlı iddiaları da tamamilə əsassızdır. Laçın yolundan hər gün minlərlə yük maşını sərbəst hərəkət edir. Yəni Qarabağda yaşayan ermənilərin ”blokadasından” söhbət gedə bilməz. Nikol Paşinyanın özü də Vardanyanı normal və ciddi şəxs kimi qəbul etmir. Baş nazir açıq-aşkar fərqindədir ki, Vardanyan Qarabağa Rusiyanın təlimatına əsasən göndərilib. XİN başçısı Sergey Lavrov utanmadan Vardanyanı tanımadıqlarını, onun Rusiya vətəndaşı olmadığını desə də, Vardanyanın Moskvaya səfərindən də görünür ki, bunlar hamısı uydurmadır. Ərazimizdə müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin fəaliyyət müddəti 5 ilin tamamında başa çatacaq. 4 il yarımdan sonra tərəflərdən biri sülhməramlıların bölgəni tərk etməsini istəyə bilər. Bu, Rusiyaya heç cür sərf etmir. Ona görə də çalışacaqlar ki, bölgədə təxribatlar törədilsin, atışmalar olsun. Nəticədə sülhməramlılar da vəziyyəti əsas gətirərək müddəti uzatsınlar. Qarabağdakı gərginliyin, o cümlədən Azərbaycan-Ermənistan danışıqlarındakı indiki durumun başlıca səbəbkarı Rusiyadır. Separatçı Araik də, Vardanyan da Kremldən göstəriş alırlar.

**- Ermənistan silahlı qüvvələri müəyyən fasilədən sonra Naxçıvan və digər dörd rayonumuzu atəşə tutmasını necə şərh edərdiniz?**

- Ermənistan tərəfi Naxçıvan və başqa dörd rayonumuzu iriçaplı silahlardan, snayperlərdən atəşə tutdu. Şübhəsiz, bu, erməni tərəfinin növbəti təxribat cəhdi idi. Azərbaycan Ordusu ermənilərin layiqli cavabını verdi. Rusiya Azərbaycan Ordusunun gücünün fərqindədir. Şuşanın atəşə tutulmasını izləyən rus sülhməramlı kontingenti yaxşı bilir ki, ordumuz hər an antiterror əməliyyatına başlaya bilər. Əgər sülh danışıqları nəticə verməsə, Azərbaycanın Silahlı Qüvvələri Xankəndi və ətraf rayonlarda nəzarəti öz əlinə alacaq. Bu istiqamətdə işlər gedir, konkret tədbirlər görülür. O baxımdan sülhməramlı kontingentin bölgədə daha çox qalmasına hesablanmış addımlar nəticə verməyəcək.

**- Münhendə Azərbaycan və Ermənistan rəhbərliyi arasında iki görüş baş tutdu. Görüşlərdə müəyyən məsələlərin müzakirə olunduğu bildirildi. Almaniyada reallaşan təmaslar sülh prosesini irəliyə doğru apara bilərmi?**

- Əvvəlcə onu deyim ki, Ermənistan Baş naziri Nikol Paşinyan özünü yenə biabır etdi. Paşinyanın ortaya qoyduğu ”arqumentə” baxın. İddia edir ki, guya, Laçın yolunda ”maskalılar” avtobusun yolunu kəsib, uşaqları qorxudub. ABŞ Dövlət katibi E.Blinkenin, Gürcüstan Baş nazirinin iştirak etdiyi yüksəksəviyyəli görüşdə erməni baş nazirin gündəmə gətirdiyi məsələyə diqqət yetirin. Bu, özünü biabır etməkdir. İndi kosmos əsridir. Sputnikdən açıq-aşkar görünür ki, Laçın yolu ilə Qarabağa nə qədər yük maşınları keçir. Mülki insanların gediş-gəlişinə heç bir maneə yaradılmır. Münhen görüşündə Azərbaycan dövlət başçısı növbəti dəfə birmənalı vurğuladı ki, ”Dağlıq Qarabağ”dan və ”status”dan söhbət gedə bilməz. İndi Qarabağ regionu var. Azərbaycan öz ərazi bütövlüyünün pozulmasına qətiyyən imkan verməyəcək. O ki qaldı Münhendən sonra hansısa irəliləyişə, əgər Ermənistan hökumətinə təzyiqlər edilərsə, sülh prosesində müsbət nəticələrin olması mümkündür. İrəvan hökuməti Azərbaycana yeni təkliflər verib. Prezident açıqlamasında bu məsələyə toxundu və bəyan etdi ki, müəyyən əlavələrlə təkliflərə baxmaq olar. Ümumən isə hesab edirəm ki, əgər Bakı-İrəvan arasında birbaşa, vasitəçisiz danışıqlar davam etdirilərsə, sülh prosesində irəliləmək olar. Dövlət başçısı da qeyd etdi ki, bizə kənar vasitəçilər lazım deyil. Cənubi Qafqazın üç dövləti problemləri öz aralarında müzakirə yolu ilə həll edə bilər. Bu, həm Rusiyaya, həm də Avropa İttifaqına bir mesaj idi, Cənubi Qafqazdan gözlərini, əllərini çəksinlər.

**İsmayıl Qocayev**



# İranın Xəzər dənizində vəziyyəti gərginləşdirməsi mümkündür

Ona görə də Böyük Britaniya Xəzər dənizində Azərbaycan sahil mühafizəsinin və sektorunun təhlükəsizliyində maraqlıdır

**Böyük Britaniyanın Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokerti Azərbaycana səfəri çərçivəsində Dövlət Sərhəd Xidməti (DSX) rəisinin birinci müavini, Baş Qərargah rəisi general-leytenant Rəşad Sadıqovla görüşüb. Görüşdə Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə Birləşmiş Krallığın müvafiq qurumları arasında sərhəd təhlükəsizliyinin müxtəlif sahələrində həyata keçirilmiş əməkdaşlıq qeyd edilib.**

Sərhəd mühafizəsi, o cümlədən dəniz təhlükəsizliyinin təmin olunması barədə fikir mübadiləsi aparılıb. Vətən müharibəsində qazanılmış parlaq Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu, işğaldan azad edilmiş ərazilərdə hazırda dövlət sərhədinin mühafizəsi üzrə fəaliyyətlərin təşkili, zəruri infrastrukturun yaradılması istiqamətində görülən işlər barədə məlumat verilib. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından bu kimi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb. Gələcəkdə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olunub. Səfər müddətində qonaqlar DSX-nin Sahil Mühafizəsinin Baş Komanda-nəzarət, Gəmi İnşası və Təmiri mərkəzləri, eləcə də 2-ci dərəcəli sərhəd gözətçi gəmisinin texniki imkanları ilə tanış ediliblər.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Böyük Britaniya İranın Xəzər dənizində təhlükəsizliyi təhdid etməsindən narahatdır. Analitikə görə, İranın Xəzər dənizində ölkəmizin ərazi sularına qarşı təcavüzü mümkündür:** ”Böyük Britaniyanın ”BP” şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neft çıxarılmasını həyata keçirir və platformaların təhlükəsizliyi strateji əhəmiyyət daşıyır. Bundan əlavə, Böyük Britaniya Mərkəzi Asiyadan qaz nəqlində maraqlıdır. Məhz Türkmənistandan Xəzər dənizinin dibi ilə qaz boru xəttinin çəkilməsi üçün ilk növbədə təhlükəsizlik ən başlıca amildir. İran rejimi belə bir kəmərin çəkilməsinin əleyhinədir və Xəzər dənizində bir çox hallarda təhlükəli hərbi manevrlər edir. Hazırda İranın Azərbaycana qarşı qeyri-konstruktiv siyasətini nəzərə alsaq, Xəzər dənizində Tehran rejiminin situasiyanı gərginləşdirməsi mümkündür. Ona görə də Böyük Britaniya Xəzər dənizində Azərbaycan sahil mühafizəsinin və sektorunun təhlükəsizliyində maraqlıdır. Bu əməkdaşlıq Azərbaycan, Türkiyə və Böyük Britaniya formatı çərçivəsində də mümkün ola bilər”.

**İsmayıl Qocayev**

# Rus məmurlar nüvə təhdidi ilə özlərini müdafiə edirlər

Politoloqun fikrincə, bu həm nazir, həm parlament, həm də media səviyyəsində müşahidə olunur

**Rusiya-Ukrayna müharibəsi uzandıqca dünyanın nüvə xofu artır. Xüsusən də vaxtaşırı Rusiya rəhbərliyinin Ukrayna və ABŞ-ni açıq təhdid etməsi nüvə müharibəsinin olma ehtimalını daha da artırır.**



Qeyd edək ki, Rusiyanın Ukraynaya təcavüzünün birinci ildönümü ərəfəsində ABŞ Prezidenti Co Baydenin Kiyevə sürpriz səfərindən bir gün sonra Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev nüvə müharibəsindən danışıb. Onun sözlərinə görə, Rusiya öz müdafiəsi üçün istənilən silahdan, o cümlədən strateji nüvə silahlarından və yeni prinsiplərə əsaslanan silahlardan istifadə edə bilər.

ABŞ-ni beynəlxalq sabitliyin arxitekturasını məhv etməkdə günahlandıran Medvedyev deyib ki, dünya qlobal münaqişə astanasındadır: ”Rusiya özünü istənilən vasitə ilə, o cümlədən nüvə silahı ilə müdafiə edəcək. Əgər ABŞ Rusiyanı məğlub etmək istəyirsə, ondan bizim özümüzü bütün silahlarla, o cümlədən nüvə silahı ilə müdafiə etmək hüququmuz var”.

Xatırladaq ki, eyni gündə Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Ryabkov da Rusiyanın nüvə silahından istifadə etmək hüququnun olduğunu söyləyib. Hazırda Vaşinqtonun davranışının yaxşılığa doğru dəyişməsinə işarə olmadığını söyləyən diplomat Rusiyanın nüvə silahının tətbiqindən çəkindirmə sahəsində sübut edilmiş təcrübəyə malik olduğunu bildirib.

”Rusiya ABŞ-nin START müddəalarına əməl etməsinə nəzarət etmək üçün öz vasitələrindən istifadə edə bilər. Rusiya artıq Fransa və İngiltərənin potensialını nəzərdən qaçıra bilməz, onların silahları ABŞ ilə birlikdə Moskvaya qarşı vahid yumruqdur. ABŞ Rusiyanın məğlub olmasını istəyirsə, o zaman Rusiya nüvə silahı də daxil olmaqla istənilən silahla özünü müdafiə edəcək. Dünya qlobal münaqişə astanasındadır”.

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynovun ”Şərq”ə açıqlamasına görə, Rusiyanın yüksəkvəzifəli şəxsləri üçün ölkələrini nüvə təhdidi ilə müdafiə etmək adət halını alıb. Politoloqun fikrincə, bu həm nazir, həm parlament, həm də media səviyyəsində müşahidə olunur:** ”Hətta ölkə Prezidenti Vladimir Putinin də bu səpkidə bir çox çağırışının şahidi olmuşuq. Xüsusilə də Ukraynanın 4 bölgəsinin, Xerson, Donetsk, Luqansk, Zaporojyenin rus qoşunları tərəfindən işğalından sonra keçirilən referendum və sözügedən ərazilərin Rusiyaya birləşdirilməsi fonunda taktiki nüvə silahından istifadə məsələsi aktual məsələyə çevrildi. Bu hadisədən sonra bir çox ekspertlər Rusiyanın nüvə silahından istifadəsini real hesab edir, dünya ölkələri rəsmi Moskvanın nüvə silahından istifadə etməsindən təşviş keçirirlər.

Rusiyalı ekspertlər də bu tədidləri belə şərh edirlər ki, ya biz qalib gələcəyik, ya da hamı uduzacaq. Bütün bunlar onu göstərir ki, həqiqətən də, müharibənin gedişində nüvə silahlarına müraciət bütün dünya üçün böyük bir fəlakətlə nəticələnə bilər.

Bu cür çağırışlar artıq bir ildir ki, dünyanın gündəmindədir. Lakin anlamaq lazımdır ki, nüvə müharibəsi bütün bəşəriyyət üçün təhlükədir. Bu təhlükənin qarşısını almaq üçün daha təmkinli və uzaqgörən siyasi baxışlara malik olmaq gərəklidir. Hazırda gedən geosiyasi proseslərdə tərəflərdən kiminsə nüvə silahına müraciət edəcəyini istisna edən ekspertlər var. Halbuki Putinin göstərişi ilə rus qoşunlarının və rus atomlarının kifayət qədər güclü hazırlıq səviyyəsinə gətirilməsi onu deməyə əsas verir ki, lokal yox, qlobal nüvə təhlükəsi heç də istisna deyil. Nüvə silahına müraciət edəcək tərəflər belə bunun necə təhlükəli olduğunu başa düşürlər. Amma bu mövzuda danışan siyasi və hərbi ekspertlər məsələni çox cılızlaşdırır. Sanki Putin bütün dünyanı atom bombası ilə yox, adi bir tapança ilə hədələyir. Çox təəssüf ki, bir çoxları dünyanı gözləyən radiasiya təhlükəsi və öldürücü dalğanın nə qədər böyük olduğunun heç fərqində deyil. Tövsiyə edirəm ki, Rusiyanın nüvə təhdidini gözardı edənlər Çernobil, Xirosima və Naqasaki faciələrinə ötəri bir nəzər salsınlar. Müasir texnologiyalarla nüvə arsenalının təkmilləşdirilməsinin nə qədər geniş insan tələfatına səbəb olacağını da tədqiq etsinlər. Geniş bir arealda hər şeyin məhv edilməsi və gələcək illərdə də bu fəsadların yaşanması ən arzuolunmaz ssenaridir. Kifayət qədər diqqətli və rasional davranmaq lazımdır”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# "Qadın sığınacaqlarının sayının artırılmasına ehtiyac var"

## Mehriban Zeynalova: "...Bu artıq zərurət halını alıb"

**"Qadınlar hüquqlarından xəbərsizdir, ona görə də müdafiə oluna bilmirlər". Bu fikirlər hüquq müdafiəçiləri, qadın hüquqlarının müdafiəsi ilə məşğul olan icitmai təşkilat rəhbərləri tərəfindən tez-tez səsləndirilir. Hüquq müdafiəçiləri, eləcə də qadınların hüquqi və sosial təminatıyla məşğul olan qeyri-hökumət təşkilatları, sığınacaq rəhbərləri problemin həlli üçün hüquqi maarifləndirməni ön plana çəkir, xüsusən regionlarda qadınlarla fəal iş aparılmasını, onların hüquqi bilgilər əldə etməsi üçün zəruri tədbirlərin icrasını vacib sayırlar.**

Fəaliyyət istiqamətləri arasında qadınların hüquqlarının müdafiəsinə də geniş yer verən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin keçirdiyi tədbirdə bu məsələlər də diqqət mərkəzində olub. "Qadınlara qarşı zorakılıq və məişət zorakılığı işləri üzrə mühafizə orderləri: beynəlxalq standartlar və Azərbaycanın milli təcrübəsi" adlı konfransda çıxışı zamanı komitənin sədri Bahar Muradova bildirib ki, zorakılığa məruz qalmış qadınların təhlükəsizliyinin təmin edilməsində mühafizə orderlərinin tətbiqi ilə bağlı çətinliklər olub. Bu da mühafizə orderi məsələsinin düzgün dərk edilməməsi və onun tətbiqi sahəsində nöqsanlarla bağlı idi. Bəzən verilən mühafizə orderləri hadisələrin sayına adekvat olmur: "Bir qayda olaraq qısamüddətli mühafizə verilir, təhlükə davam etdikcə uzunmüddətli mühafizə orderlərinin verilməsi gecikir. Lakin bununla bağlı təkliflər paketi hazırlanıb. Bura zərərçəkmiş şəxslərin müdafiəsi üzrə çevik və adekvat mühafizə mexanizminin yaradılması, pulsuz hüquqi yardım verilməsi daxildir. Paketlə bağlı dövlət qurumlarından, ictimaiyyət nümayəndələrindən müsbət rəy verilməsini və Parlamentdə qəbul olunmasını gözləyirik". B.Muradova zorakılığa məruz qalan qadınların sığınacaqlara yerləşdirilməsində də bəzən problemlər yarandığını deyib. Komitə sədri bunu, sığınacaqlarda yer azlığı ilə əlaqələndirib. B.Muradova qeyd edib ki, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Avropa İttifaqının birgə hazırladığı hesabat sənədində qurbanların ədalət mühakiməsinə çıxışının ilk şərti kimi onlara göstəriləcək zəruri xidmətlərlə bağlı tövsiyələr verilib. Hesabatda bildirilir ki, qurbanların tibbi sığorta, maliyyə yardımı, mənzil təminatı və məşğulluq kimi ümumi xidmətlər vasitəsilə dəstəklənmək hüququ və bu sahədə məlumatlar bütün qurbanlar üçün əlçatan olmalıdır: "Qadın sığınacaqlarında yerlərin sayını artırmaqla bütün qurbanlar üçün təhlükəsiz yaşayış və dəstək hüququ yaradılmalıdır. Lakin zorakılığa məruz qalan qadınlar üçün nəzərdə tutulan sığınacaqlarda hazırda tələb olunan minimum sayda yerlərin 58 faizi hələ də çatışmır. Cinsi zorakılıq va zorlama qurbanı olan qadınlar üçün mərkəzlərin yaradılması da təklif edilir". Həmçinin qadınlara qarşı zorakılığın və məişət zorakılığının bütün qurbanları va onların övladlarına ixtisaslaşdırılmış xidmətlər təklif edə bilmələri üçün qadın QHT-lərinin kifayət qədər maliyyələşdirilməsi tövsiyə olunub. Digər tövsiyələr qadınlara qarşı zorakılıq qurbanları üçün 24/7 rejimində çalışan yardım xəttinin mövcud olmasını təmin etmək üçün maliyyələşdirmənin artırılması, dəstək xidmətlərinə çıxış əldə etməkdə çətinlik çəkən qurbanlara dəstək olmaq üçün sayyar xidmətlərin təşkili, qaynar xəttə zənglərin hər kəs üçün ödənişsiz olmasını təmin etmək üçün dövlət orqanları ilə mobil operatorlar arasında əməkdaşlıq protokollarının işlənib hazırlanması, salahiyyətli orqanların uzun sürən prosedurları və qurbanlarda vəsait çatışmazlığı səbəbindən mühafizədə boşluqların yaranmaması üçün sənədləri olmayan qadınların sənədlərinin dublikatlarını ödənişsiz almasını təmin etmək məqsədilə prosedurların sürətləndirilməsi daxildir.

**"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, konfransda ciddi problemlərə toxunuldu:**

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Avropa İttifaqının birgə hazırladığı hesabat sənədində bir sıra tövsiyələr var. Bahar xanım onları açıqladı; qurbanların ədalət mühakiməsinə çıxışının təmin edilməsi, zəruri hüquqi xidmətlər göstərilməsi, qurbanların tibbi sığorta, maliyyə yardımı, mənzil təminatı və məşğulluğunun təmini, qadın sığınacaqlarında yerlərin sayının artırılması, qurbanlar üçün təhlükəsiz yaşayışı təmin etmək... Həmçinin cinsi zorakılıq va zorlama qurbanı olan qadınlar üçün xüsusi mərkəzlərin yaradılması da tövsiyələrə daxildir. Bu tövsiyələrin yerinə yetirilməsi üçün qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edilməli, vətəndaş institutları problemin həllinə cəlb edilməlidir. Bahar xanım sığınacaqların azlığını bundan əvvəl də gündəmə gətirmişdi. Bəli, bu, ciddi problemdir. Məhz yer azlığı səbəbindən zorakılığa məruz qalan qadınları sığınacağa bəzən qəbul edə bilmirik. Bu da zorakılığa məruz qalmış və hətta həyati təhlükəsi olan qadınlar üçün riskli vəziyyət yaradır. DİN-nin 1, ƏƏSMN-nin Sosial Xidmətlər Agentliyinin də 3 sığınacağı var. Qalan 5 sığınacaq qeyri-dövlət əsaslıdır. Bizim Qadın sığınacağı Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə fəaliyyət göstərir. Əlbəttə, dövlətin yardımını, dəstəyini də hiss edirik. Bəli, sığınacaqların sayının artırılmasına ehtiyac var və bu artıq zərurət halını alıb. Amma buna necə nail olunmalıdır? Məsələn, Amerika Birləşmiş Ştatlarında dövlət qeyri-hökumət təşkilatlarına sifariş verir, ehtiyaclar dəyərləndirilir, buna uyğun olaraq da QHT-lər sifarişi icra edir. Bunun üçün dövlət QHT sektoruna 70 faiz civarında yardım edir. Fikrimcə, bizdə də bu metoddan istifadə edilməlidir. Əvvəlcə mövcud vəziyyət və ehtiyaclar dəyərləndirilməlidir. Keçid sığınacaqları da yaradıla bilər. Keçid sığınacaqları bölgələr üçün xarakterikdir. Təhlükəsizliyin təmini məqsədilə əvvəlcə keçid sığınacaqlara yerləşdirilənlər, təhlillər aparıldıqdan sonra digər sığınacaqlara köçürülə bilər. Paytaxtda da, bölgələrdə də buna ehtiyac var.

M.Zeynalova qeyd etdi ki, mühafizə orderi məsələsində də problemlər ortadan qaldırılmalıdır:

- Qərarlar çevik verilmir. Bu da qadınların hüquqlarının pozulmasına, sağlamlıqları və həyatlarına təhlükəni daha da artırır. Bu işdə məhkəmələrin üzərinə məsuliyyət düşür. Uzaqlaşdırma qərarları zamanında verilməlidir ki, qadınların həyat və sağlamlığına real təhlükə aradan qalxsın. Qadınların hüquqi maarifləndirilməsi də əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu işdə komitə qeyri-hökumət təşkilatları ilə sıx çalışmalıdır. Dəstək xidmətlərinə çıxış əldə etməkdə çətinlik çəkən qurbanlara dəstək olmaq üçün sayyar xidmətlərin təşkili vacibdir. Qaynar xətlərin fasiləsiz çalışması, daxil olan zəngləri aidiyyəti üzrə yönləndirməsi üçün dövlət orqanları ilə mobil operatorlar arasında əməkdaşlıq zəruridir. Bu zəruri tədbirlər həyata keçirilərsə, hüquqların təminatı məsələsində daha yüksək nəticələrə nail olarıq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Ramiz Novruzu gizli şəkildə dəfn etmək axı ayıbdır!"



## Bir zal olmadı ki xalq, sənət dostları sənətkarla vidalaşa bilsin?!

**Səməd Vurğun yazırdı: "Bizdə şeir də var, sənət də vardır, şeirə, sənətə hörmət də vardır". Rəhmətlik "sənətkar" sözünü əlavə etməyib; sənətə hörmət varsa, sənətkara da olar yəqin, inamıyla. Nə biləydi ki gün gələcək şeir də, sənət də, sənətkar da hörmətdən düşəcək?!. Son 3-4 ili necə ötürdüyümüzə nəzər salsaq, istedadlı və xalqın sevdiyi, sayğı göstərdiyi həqiqi sənətkarların dəfni sakit, kirimişcə keçirilib.**




Sənətkarlara hörmətsizlik nə vaxtdan "dəb"ə "mindi"? Bir az araşdırma apardıqda məlum oldu ki, Akademik Milli Dram Teatrının səhnəsi mərhumlara illər öncə bağlı elan edilib. Xalq artisti Əli Nur vida mərasimlərinə qoyulan qadağanın tarixçəsini belə anladıb: "Bu ənənə rəhmətlik Mikayıl Mirzənin dəfn olunmasından başlayıb. Həmin vaxt Polad Bülbüloğlu mədəniyyət naziri idi. Polad Bülbüloğlu Mikayıl Mirzəni xoşlamırdı. Mikayıl Mirzə istəyirdi ki, teatr inkişaf eləsin, dünyaya çıxsın, yaxşı tamaşalar qoyulsun. Beləcə, onların arasında narazılıq yarandı. Mikayıl Mirzə rəhmətə gedəndə icazə vermədilər ki, onun cənazəsi teatrdan götürülsün, ondan sonra aktyorlara vida mərasimi keçirilməməsi ənənəsi davam elədi. Yeganə mərhum Xalq artisti Amaliya Pənahova dünyasını dəyişəndə ona Akademik Milli Dram Teatrında vida mərasimi keçirildi. Başqa heç kimə icazə verilmədi".

Yaddaşın dərinliklərinə enəndə görürsən ki, xalq artistinin söylədiklərində həqiqət payı var. Rəfael Dadaşovla vida mərasimi evində keçirildi. Safura İbrahimova, Zərnigar Ağakişiyeva, Ramiz Məmmədov, Ramiz Əzizbəyli, İlham Əsgərov, Fuad Poladov... indi də Ramiz Novruz (Novruzov). Sonra kimlər olacaq, Allah bilir. Kimin harada dəfn ediləcəyi, vida mərasiminin harada keçirildiyi, ümumiyyətlə, keçirilib-keçirilməyəcəyinə önəm verənlərdən deyilik. Əsas insanın ona təyin edilmiş ömrü şərəflə, ləyaqətlə yaşamasıdır. Həyatda məhz bu cür yaşayanları ucaldan da budur. Həqiqi sənətkarlar xalqın əbədi sevgisini qazanır, heç vaxt unudulmurlar. Onlara layiq olduqları diqqəti, hörməti göstərməyənlərsə qınanır, qarğış sahibi olurlar.

Xalq artisti Ramiz Novruzovun cənazəsinin Akademik Milli Dram Teatrının səhnəsindən götürülməməsi sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Mədəniyyət Nazirliyinin, Akademik Dram Teatrının rəhbərliyi sərt qınaqlara tuş gəlib.

**Dosent Zaur Əliyev yazıb:** "Sizi dünyalar qədər sevirdim" filmi ekranlara çıxan gün keçmiş Sovetlər Birliyində ən çox baxılanlardan biri oldu. Buna iki səbəb var idi. 1) Film iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun haqqında idi. 2) Həzi Aslanov obrazını yaradan gənc aktyor Ramiz Novruzun peşəkar aktyorluq qabiliyyəti. Ramiz Novruz qürurlu aktyor idi. Xalq artisti adını layiqincə daşıya bilən insan idi. Mənə görə Həsən Əbluc, Fuad Poladov və Ramiz Novruz üçlüyü son 30-40 ilin ən gözəl aktyorları idilər. Bu üçlüyü birləşdirən bir xətt var : milli kimliyi özlərində yaşadan xətt Üçü də bir sözləri ilə milyonlar qazana bilərdilər. Amma onlar başlarını dik tutaraq ölümü seçdilər, təmiz vicdan və adla bizi tərk etdilər. Ramiz Novruz səhnə həyatının ən çətin rolunu Həzi Aslanov obrazı ilə oynadı. General Həzi Aslanov rusca pis danışırmış. Cəbhə xəttində davranış taktikasını, özünü düşmənə bildirməmək qaydalarını izah edəndə belə deyirmiş: "Adə, mı uje zdes (biz buradayıq), a nemes, aha, uje tam, mı zdes oqon, yəni ocaq qalasaq, ottuda nemes oqon, (əlini əlinə vuraraq) nas net (biz yoxuq)". "Uje" sözünü çox işlədirmiş. "General" sözünü deyə bilmirmiş, "general" əvəzinə "gerenal" deyirmiş. Döyüş yoldaşları onu çox istəyirmişlər, cavan olmasına baxmayaraq, "batya" deyə çağırırmışlar. Məhz Batyanı canlandırmaq Ramiz Novruzun ömür dəftərinə yazıldı, filmə baxan yaxınları deyirdilər ki, Ramiz o qədər real oynayıb ki, generalın ailəsi onu öz doğmaları kimi qəbul etdilər...Necə general danışırdı, onun obrazında Ramiz Novruz eyni danışırdı... Belə bir aktyor. Belə bir insan. Ölümü ilə ölümsüzlük qazandı. Çox heyif ki, onu İkinci Fəxri xiyabanda dəfn etmədilər. Çox heyif ki, onunla vida mərasimi Mədəniyyət Nazirliyinin adına yaraşmadı. Çox heyif ki, onun ölümü ilə bağlı rəsmi səviyyədə nekroloq olmadı. Çox heyif ki, Ramiz Novruza bu qədər soyuq yanaşıldı.

100 illər keçəcək, gələcək nəsillər Ramiz Novruzun ifasında Həzi Aslanova həsr edilən filmə baxıb deyəcəklər: Mən sizləri dünyalar qədər sevirəm! Ruhun şad olsun Sənətkar!

**Rəsul Mirhəşimli:** Sənəti və şəxsiyyəti mükəmməl olub, bu iki cəhəti ilə bir-birini tamamlayan insanlar az olur. Ramiz Novruz aktyor kimi çox istedadlı, peşəkar sənət adamı, eyni zamanda mükəmməl insan idi. Zəngin dünyagörüşü olan Ramiz bəyi həyatda tanıdığım, doxsanıncı illərdə dəfələrlə müsahibə alan jurnalist kimi şanslı sayıram özümü. Bu cür yüksək istedadı olmasına rəğmən həddindən artıq təvazökar insan idi. Azərbaycan kinosuna general Həzi Aslanov obrazı bəxş edən, bu rolda özünü tamaşaçıya bir ömür sevdirməyi bacaran sənətkarın dəfn mərasimi sıradan, yalnız ailə üzvlərinin və yaxınlarının təşkilatçılığı ilə keçirilməli deyildi. Xalq artistinin dəfni dövlət səviyyəsində təşkil edilməli, Mədəniyyət Nazirliyi vida mərasimi düzənləməli idi. Azərbaycan mədəniyyətini tanımayan insanlar vəzifədə oturduqca, bu cür laqeydlik üçün çox təəssüf edəcəyik. Allah Ramiz Novruza rəhmət eləsin!

**Şahbaz Xuduoğlu:** Ramiz Novruz böyük sənətkar olmaqla yanaşı, mükəmməl şəxsiyyət idi. Biz öyrənmişik ki, xalqın adına layiq sənətkarları xalq özü son mənzilə yola salır. Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı, Az. drama!, bir zal olmadı ki xalq, sənət dostları sənətkarla vidalaşa bilsin?!

**Xalq artisti Əli Nur:** "Sovet dövründə adicə əməkdar artist dünyasını dəyişəndə belə onu Akademik Milli Dram Teatrının səhnəsindən və yaxud kiçik formada Aktyorlar Evindən götürürdülər. Yəni dövlət aktyorun, sənətin qədrini bilirdi, sənətin qiymətini bilənləri dəyərləndirirdi. Amma indi elə bil dünya heç bunların vecinə deyil. Təsəvvür edin, saat 4 radələridir, biz hələ indi dəfnə toplaşmışıq. Bu məsələ əvvəldən layiqli şəkildə təşkil olunmalı, Ramiz Novruz kimi çox dəyərli sənətkar layiqli dəfn edilməli idi. Axı Ramiz Novruz elə-belə aktyor deyil. O, Azərbaycan kinosunun, teatrının böyük aktyorudur. Bu sənətkar da gərək şərəflə, ləyaqətlə, adına layiq, həmçinin Azərbaycan mədəniyyətinin, dövlətinin adına layiq dəfn olunaydı. Axı bu cür aktyorlar səhnədə 50 il can qoymuş adamlardır. Onlar Azərbaycan mədəniyyətinin ideologiyası, tribunasıdır. Ramiz Novruz Akademik Milli Dram Teatrının səhnəsindən götürülməliydi, Mədəniyyət Nazirliyinin yüksək səviyyəli məmurları, heç olmasa, hərəsi bir-iki kəlmə söz deyəydi. Ramiz Novruzu gizli şəkildə dəfn etmək axı ayıbdır!".

*Akademik Milli Dram Teatrının baş rejissoru Azərpaşa Nemətov isə bildirib ki, "Azdrama"da vida mərasimləri artıq keçirilmir. Mədəniyyət Nazirliyində isə nazir postu hələ boşdur deyə, kimsə məsuliyyəti üzərinə götürmək istəməyib. Vəssalam!*

**Məlahət Rzayeva**

# Uşaqlar və körpələr arasında vərəm çoxalıb

## Müalicə olunan xəstəlikdir, lakin xəstə nəzarətsiz və müalicəsiz qalarsa ölümə səbəb ola bilər



**Dünyada vərəm nadir görülən xəstəlik kimi qəbul edilsə də, pulmonoloqlar bu xəstəliyi Azərbaycan üçün real təhlükə mənbəyi kimi görürlər. Mütəxəssislərin rəyinə görə, uşaqlar və hətta körpələr arasında vərəm çoxalıb. Bunun bir ucu COVİD-19 pandemiyasına toxunur. 2020-21-ci illərdə camaatın evdə qaldığı vaxtlarda vərəm üzrə müayinələr aparılmadığı üçün evlərdə, ailə üzvləri arasında yoluxma kəskin artıb. Çünki vərəmli xəstənin simptomları aşkara çıxana qədər o artıq ailədəkiləri yoluxdurur. Ev təmaslarının yoxlanılmaması üzündən indi biz uşaqlar və körpələr arasında vərəmin yayıldığını müşahidə edirik.**

Pulmonoloq Həsən Həsənzadənin fikrincə, təcili tədbirlər görülməsə, vəziyyət qarşısıalınmaz hal alacaq: "Ölkəmizdə vərəm xəstəliyi ilə bağlı vəziyyət ciddi, təhlükəli hal alıb. Kimsə deməsin ki, mən qorunuram. Bu mövzuda ya cəmiyyət qorunmalıdır, kiminsə fərdi şəkildə qorunması artıq mümkün deyil. Həyata keçirilən profilaktik tədbirlər, aparılan müalicələr, müalicə edənlərin (istisnalar var) bu sahəyə aid biliyi çox zəifdir. Maarifləndirmə yox səviyyəsindədir. Məcburi müalicə qanunları şərtdir! Xəstəliyi və xəstəliyini bilib gizlədən, müalicə almayan xəstələr məsuliyyət daşımalıdır! Real addımlar atılmalıdır, yoxsa çox gec olacaq".

Vərəm əleyhinə QHT Koalisiyasının rəhbəri Elçin Muxtarlının sözlərinə görə, COVİD-19 pandemiyasından əvvəl də, sonra da vərəm dünyada ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Bu mövzuya sosial media hesabında toxunan E.Muxtarlı deyib ki, xəstəliklə mübarizədə səylərimizi birləşdirərək birgə mübarizə aparmaq məqsədilə hər il 24 Mart Dünya Vərəmlə Mübarizə günü kimi qeyd olunur: "Dünyada olan vərəm xəstələrinin 87 faizini 30 ölkə təşkil edir. Hindistan, Nigeriya, Banqladeş, Cənubi Afrika, Filippin kimi ölkələrin olduğu bu siyahıda təəssüf ki, Azərbaycanın adı da çəkilir. Vərəmin müalicəsi var və tam sağala bilən xəstəlikdir. Buna rəğmən vərəmdən hər dəqiqədə ən azı 2 nəfər dünyasını dəyişir.

Vərəmdən Azərbaycanda bugünə kimi (2022 ilə istinadən) 52 nəfər ölüb. Vərəm Bərdə və ətraf rayonlarda pandemiya vəziyyətindədir. Çox təəssüf ki, bir çoxları vərəm olduqlarını gizlədir. İctimai nəqliyyatda, əhalinin sıx olduğu yerlərdə daha tez yoluxma baş verə bilir. Vərəmə qarşı ciddi tədbir görülməzsə, o, COVİDdən daha təhlükəli səviyyəyə gəlib çata bilər. Biz, vətəndaş cəmiyyəti, dövlətimizlə birgə vərəmlə mübarizə işini gücləndirəcəyik. Vərəm xəstəliyinin artmasının qarşısını almaq üçün QHT-lərə daha geniş imkanlar yaradılmalıdır. QHT-lər, ictimai vəkil kimi yeri gəldikdə hətta təmənnasız vətəndaşa qayğı göstərir və onun haqq və hüquqlarını canıyananlıqla müdafiə edir.

**Həkim-terapevt Günel Fətəliyeva isə "Şərq"ə açıqlamasında deyib ki, vərəm "mykobakterium tuberculosis", başqa sözlə, vərəm çöpləri tərəfindən törədilən infeksion xəstəlikdir. Vərəm hava-damcı infeksiyasıdır, yoluxma tənəffüs yolları ilə baş verir:** "Xəstə şəxs danışanda, öskürəndə və asqıranda tənəffüs yollarından ətraf mühitə çoxlu damlacıqlar səpələnir və nəfəsalma ilə ətrafdakı sağlam şəxslərin tənəffüs yollarına daxil olur. Beləliklə, orqanizm vərəm çöpü ilə qarşılaşır və infeksiyalaşır. Lakin hamıda mütləq vərəm xəstəliyi inkişaf etmir. Orqanizmin immun sistemi mikroba müqavimət göstərir. Sonralar hər hansı bir səbəbdən immun sistem zəiflərsə, vərəm çöpləri aktivləşir, müxtəlif orqanlara hücum edərək xəstəlik törədir. Vərəm bədəndə yayılıb bir çox orqanları zədələyə bilər. Lakin giriş qapısı tənəffüs yolları olduğundan ağciyər vərəminə daha çox rast gəlinir".

G.Fətəliyevanın sözlərinə görə, vərəm müalicə olunan xəstəlikdir, lakin xəstə nəzarətsiz və müalicəsiz qalarsa, ölümə səbəb ola bilər.

Vərəmə şübhə yaradan əsas əlamətlərə gəldikdə isə terapevt deyib ki, uzun müddət davam edən quru öskürək, döş qəfəsində ağrılar, axşamlar hərarətin yüksəlməsi, halsızlıq, gecə tərləmələri, iştahın azalması, bədən çəkisinin azalması, bəlğəmdə qan, təngnəfəslik- xəstəlik xeyli irəlilədikdə yaranır:

"Risk qrupuna 5 yaşdan kiçik uşaqlar və 65 yaşdan yuxarı yaşlılar, şəkərli diabet xəstələri, Hiv infeksiyasına yoluxanlar, Kortikosteroidlə müalicə olunanlar (bronxial astma və revmatoloji xəstələr), onkoloji xəstələr, dializdə olanlar, orqan transplantasiyası edənlər, alkoqollar, siqaret çəkənlər, narkomanlar, evsizlər, yataqxanada qalanlar,

qaçqınlar, miqrantlar, məhkumlar, vərəm xəstəsi ilə kontaktda olanlar aiddir.

Risk qrupuna daxil olanlar tibb müəssisələrində ciddi nəzarətə götürülür və müvafiq profilaktika tədbirləri aparılır. Risk qrupuna daxil olmayanlar vərəmlə xəstələnməmək üçün sağlam həyat tərzi keçirməli, zərərli vərdişlərdən (alkoqol qəbulu, siqaretçəkmə) uzaq olmalı, düzgün qidalanmalı və düzgün yuxu rejimində olmalıdırlar".

Şəymən

## Sənətkara bir vida mərasimi niyə keçirilməsin?

### İlham Quliyev: "Əvvəllər heç olmasa, ölülərimizə qiymət verməyi bacarırdıq"

**"Xalqın sevimlisinə çevrilən, dövlətin ali mükafatlarına layiq görülmüş sənət adamlarının dəfn mərasimlərinin təşkili ilə bağlı xoşagəlməz mənzərə ilə rastlaşmaqdayıq".**

Bu barədə "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev sosial şəkəbədə yazıb. Baş redaktor vurğulayıb ki, Xalq artisti, Prezident təqaüdçüsü Ramiz Novruzun dəfn mərasimində bir daha bunun şahidi olduq: "Ömrünü Azərbaycan teatrına və kinosuna həsr etmiş, ölkənin bir nömrəli teatrının onurğa sütunu olan, xalq tərəfindən sevilən sənətkarla adi bir vida mərasimi də keçirilmədi. Bu, xüsusi maliyyə tələb edən bir iş deyil ki, deyəsən büdcə vəsaitini sərf etmək istəmirlər, qənaət edirlər. Bunu etmək yalnız diqqət və sevgi tələb edir. Sadəcə, sahəni bilmək, onun əsas fiqurlarına ehtiram nümayiş etdirmək lazımdır. Sənətkarlara həm sağlığında, həm də ölümündən sonra dəyər vermək lazımdır! Əvvəllər heç olmasa, ölülərimizə qiymət verməyi bacarırdıq. Təəssüf ki, son illər bunu da unutmağa başlamışıq. Sənətkarlar olmasa, bu sahəyə məsul olan Mədəniyyət Nazirliyi kimə lazımdır?". İ.Quliyev vurğulayıb ki, təcili şəkildə bu işə bir əncam çəkilməlidir: "Böyük sənətkarların, dövlətin ali mükafatlarına layiq görülmüş şəxslərin dəfn mərasimlərinin təşkili ilə bağlı icrası məcburi olan qaydalar hazırlanmalıdır. Hansısa tanınmış şəxs dünyasını dəyişəndə yaxınları onunla vida mərasiminin harada keçiriləcəyi, dəfninin harada olacağı ilə bağlı nazirlikdən gələcək zəngə möhtac olmamalıdırlar!".

İsmayıl


**Elan**

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi 4 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinə məxsus MN 149363 nömrəli protokol itdiyi üçün etibarsız sayılır.

**Minnətdarlıq**

Mən "İnşaatçılar" metrosu, Şərifzadə 148-də yerləşən "Fatimə" aptekə getmişdim. Məni aptekin işçiləri Mustafayeva Könül, Turabova Günel və Fərzullazadə Aytən xanım gülərüzlə qarşıladılar. Lazım olan dərmanları tapıb verdilər. Sağ olsunlar. Onlara öz minnətdarlığımı bildirirəm.

Fazilə Məmmədova

**BİLDİRİŞ.**

*Hörmətli səhmdar!*

"İnturavto" ASC-nin15 aprel 2023 cü il tarixdə saat 10:00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi.

1.2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına dair hesabatın müzakirəsi və təsdiqi.

2.Təşkilati məsələ:

"İdarə heyətinin sədrinin üzvünün seçilməsi.

3.Digər məsələlər.

Ünvan: Bakı şəhəri, Nəsimi rayonu,Xətai prospekti 40a

Səhmdarlar yığıncağın gündəliyinə dair sənədlərlə həftənin bütün iş günlərində idarə heyətinin sədri ilə əlaqə saxlayaraq tanış ola bilərlər.

Telefon: (050) 211 82 64

İnturavto ASC-nin

İdarə Heyətinin sədri Ə.İsmayılov


bakcell



# Bakcell rəhbərliyində yeni təyinatlar

**Bakcell şirkətinin baş icraçı direktoru vəzifəsinə KlausMüller təyin edilib.**

Telekommunikasiya sahəsində 30 ildən çox iş təcrübəsinə malik olan KlausMüller Avropanın bir çox böyük telekommunikasiya şirkətlərində rəhbər vəzifələrdə çalışıb. O, Almaniya, ABŞ, Macarıstan, Azərbaycan və digər ölkələrdə iri telekommunikasiya şirkətlərində genişmiqyaslı transformasiya proqramları və strategiyaların həyata keçirilməsi ilə bağlı zəngin təcrübəyə malikdir. Klaus Müller Almaniya, İspaniya və ABŞ-da iqtisadiyyat, strateji idarəetmə və biznesin idarə edilməsi üzrə təhsil alıb və iqtisadiyyat üzrə fəlsəfə doktorudur. "Müasir dövrdə telekommunikasiya sənayesi üçün dəyişikliklərə çevik reaksiya vermək, abunəçilərin ehtiyaclarını anlamaq və innovativ həllər təklif etmək çox vacibdir. Yüksək mobil internet sürəti, şəbəkənin geniş əhatə dairəsi və müştəri məmnuniyyətinin yüksək səviyyədə olması sayəsində Bakcell Azərbaycanın telekommunikasiya bazarında aparıcı mövqeyə malikdir. Mən "Bakcell"də işə başlamaqdançox məmnunam. Biz komanda ilə birlikdə şirkətin bazar mövqeyi və texnoloji üstünlüyünün daha da möhkəmləndirilməsi və innovativ rəqəmsal layihələrin həyata keçirilməsi üzərində çalışacağıq", deyə Klaus Müller bildirib.

Qeyd edək ki, 2019-cu ildən başlayaraq "Bakcell"in baş icraçı direktoru vəzifəsində çalışmış Rainer Rathgeber şirkətin uğurlu fəaliyyətinə töhfə verib. Bu illər ərzində Bakcell şirkətinin Azərbaycanın telekommunikasiya bazarındakı mövqeyi daha da güclənib.

Həmçinin NEQSOL Holding-in Qrup üzrə Baş Maliyyə Direktoru və NEQSOL Holding Azərbaycan ofisinin rəhbəri İmran Əhmədzadə Bakcell şirkətinin Direktorlar Şurasının üzvü təyin edilib. İmran Əhmədzadənin bank, enerji, telekommunikasiya və tikinti sahələrində 20 illik təcrübəsi var. O, 2013-cü ildə NEQSOL Holding-in tərkibinə daxil olan Nobel Energy-də Xəzinədarlıq üzrə Baş Direktor, 2017-ci ildə NEQSOL Holding-də Baş Maliyyə Direktorunun müavini, 2018-ci ildə isə Baş Maliyyə Direktoru təyin olunub. O, həmçinin Vodafone Ukraine, Nobel Energy, Norm və Holdinqin tərkibindəki digər şirkətlərin Direktorlar Şurasının üzvüdür. İmran Əhmədzadə Harvard Biznes Məktəbinin məzunudur.

NEQSOL Holding-in tərkibinə daxil olan Bakcell Azərbaycanda ən son VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

# Orta məktəblərə direktor təyinatı çox uğursuzdur

## Mövcud qaydalarda test imtahanı verirlər, sonra da məktəbdən xəbərsizlər müsahibə verir və təyin edilirlər



**Paytaxtdakı 49 nömrəli "İntellekt" məktəb-liseyində valideynlərdən vəsait tələb olunmasına dair yayılan səs yazıları ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən müvafiq araşdırma aparılıb.**

Bu barədə "Təhsil.biz"ə BŞTİ-dən məlumat verilib.

Bildirilib ki, araşdırmanın nəticələrinə uyğun olaraq məktəb-liseyin direktoruna Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib:

"Belə hallara təkrar yol verildiyi halda daha ciddi tədbirlər görüləcəyi bildirilib. Məktəb-liseyin təlim-tərbiyə işləri üzrə direktor müavininin ərizəsi nəzərə alınmaqla əmək müqaviləsinə xitam verilib. Müəllimlərlə bağlı da qanunauyğun tədbirlərin görülməsi təmin ediləcək. Qeyd edək ki, məktəbin fəaliyyətinə uyğun olmayan və müəllimin nüfuzuna xələl gətirən hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılır".

Azərbaycanda zaman-zaman məktəb direktorları ilə bağlı bu kimi problemlər yaşanır. Xatırladaq ki, Zaqatala şəhər Ş.Qurbanov adına 3 nömrəli tam orta məktəbdə aksiya keçirilib. Məlumata görə, müəllim və valideynlər fevralın 17-də məktəbə yeni direktor təyin edilən Məhnurə İsmayılovanın vəzifəsindən azad edilməsini tələb edirlər. Kollektiv yeni direktorun idarəçiliyindən narazıdır. Bildirilir ki, vəzifəyə təyin olunandan sonra yeni qadağaların tətbiqinə başlayıb. Məktəbdə hazırda dərs keçirilmir.

**Sözügedən hadisəni şərh edən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında deyib ki, hazırda orta məktəblərə direktor təyin olunma sistemi çox keyfiyyətsiz və uğursuzdur". Onun sözlərinə görə, mövcud qaydalarda test imtahanı verirlər, sonra da məktəbdən xəbərsizlər müsahibə verir və təyin edilirlər:** "Bəli, 10 il əvvəl üçün bu qaydalar adekvat hesab oluna bilərdi.

İndi qaydalar daha da pisə doğru dəyişib. Belə ki, şagird sayı 150-yə qədər olan məktəblərə direktor təyinatı Regional Təhsil İdarələri tərəfindən kefləri və maraqları müqabilində həyata keçirilir. Son günlər məhz direktor təyinatından sonra baş verən hadisələr mövcud qaydalara dəyişikliklər edilməsini tələb edir".

**Təhsil eksperti Nadir İsrafilov da hesab edir ki, məktəb direktorlarının seçimində və vəzifəyə təyinatında müəyyən boşluqlar var və bunlar aradan qaldırılmadıqca bu kimi halların baş verməsi qaçılmaz olacaq:** "Məktəb elə bir sahədir ki, ona rəhbərlik edənin təkcə nəzəri bilikləri kifayət etmir. Nüfuz və qarşılıqlı hörmət olmadan səmərəli idarəetmə həyata keçirilə bilməz. Məktəbin rəhbəri, təlim-tərbiyə işinin və təsərrüfat fəaliyyətinin təşkilatçısıdır. O, müxtəlif bir-birini tamamlayan funksiyaları - təşkilatçılıq, pedaqoqluq, inzibatçılıq, ictimai xadimlik funksiyalarını yerinə yetirir. Elə ona görədir ki, orta ümumtəhsil müəssisələrinə rəhbərlik edən şəxslərin idarəetmə bacarıqları, yaradıcı keyfiyyətləri mütəmadi müzakirə olunan mövzulardandır".

Şəymən


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM000
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 534



## Ölü quşlardan dron kimi istifadə olunacaq

**Ölü quşların skeleti doldurularaq dron kimi istifadə edilə biləcək. Bu barədə "NTV.com.tr" də yer alan məlumatda bildirilir.**

Xəbərə görə, ölmüş quşların içi doldurulacaq və bundan vəhşi təbiəti müşahidə etmək məqsədilə istifadə ediləcək. ABŞ İqlim və Kosmos Elmləri İnstitutu "SciTech 2023" Forumunda bu haqda məlumat verib. Məlumatda qeyd olunub ki, ölmüş quşlardan qanad çalan dron kimi istifadə ediləcəyi zaman çox yaxındır. Qanad çalan dronlar - ornitopterlər, quşların uçuş sürəti, həmçinin pərvanələrin də uçuşu nəzərə alınaraq mexaniki hissəciklərdən istifadə edilməklə istehsal edilir. "Qanad çalan" dronlar insanların vəhşi təbiəti müşahidə altında saxlamasına imkan verir. "Qanad çalan" dronların istehsalında quşların təbii xüsusiyyətləri ilə süni intellekt imkanları birləşdirilib. Yeni dronların ilk uçuşu gerçəkləşib artıq. Alimlər bildirib ki, qanad çalan dronlar təbii göründüyündən şübhə oyatmayacaq. Canlılar bu dronları quş sandıqları üçün rahatsız olmayacaqlar. Cihaz isə müşahidələrə davam edəcək. İstehsalçılar canlılar cihazın səsindən qorxmasın deyə, dronun səssiz uçuşunu da təmin edib.

Məlahət

## "Ericsson" şirkəti xərcləri azaltmaq məqsədilə 1400 işçisini ixtisar edəcək




**"Ericsson" şirkəti xərcləri azaltmaq məqsədilə 1400 işçisini ixtisar edəcəyini bildirib.**

İxtisarlar şirkətin İsveçdəki ofislərində aparılacaq.

2022-ci ilin 4-cü rübü üzrə hesabata əsasən, "Ericsson" şirkətində dünya üzrə 105 min 529, İsveçdə isə 14 min 481 nəfər işləyir. Deməli, şirkət İsveçdəki ümumi işçi qüvvəsinin 10 faizini ixtisar edəcək.

Yanvarın 20-də "Ericsson" 2022-ci maliyyə ili üçün satış göstəricilərini təqdim edib. Belə ki, ümumi xalis satışlar illik müqayisədə 17 faiz artaraq 271,5 milyard SEK-ə (26,2 milyard ABŞ dollarına) çatıb. Lakin xalis gəlir 17 faiz azalaraq 19,1 milyard SEK-ə (1,84 milyard ABŞ dolları) düşüb.

Şirkətin prezidenti və baş icraçı direktoru Börje Ekholm deyib: "Öz fəaliyyətimiz üçün uzunmüddətli perspektivə müsbət yanaşırıq. Lakin kapital bazarlarında yaxın müddətli perspektiv qeyri-müəyyən olaraq qalır. Biz gözləyirik ki, operatorlar makroiqtisadi çətinliklərə cavab olaraq xərclərini daha çox azaltmaqla aktivlərini idarə edəcəklər. Bundan əlavə, tədarük vəziyyəti yaxşılaşdıqca operatorların inventar səviyyələrini tənzimləmələrini gözləyirik".

## Fransada sudan istifadəyə mart ayından məhdudiyyət qoyula bilər



**Növbəti yay quraqlığına hazırlaşan Fransada mart ayından etibarən sudan istifadəyə sərt məhdudiyyət qoyula bilər.**

**Azərtac xəbər verir ki, bunu Fransanın ekologiya naziri Kristof Beşyu Franceinfo TV telekanalının efirində bildirib. Onun sözlərinə görə, fevralın 23-də quraqlıq xəbərdarlığı üzrə komitənin, ertəsi gün isə bütün milli ərazi rəhbərlərinin iştirakı ilə iclas keçiriləcək.**

**Son 32 gün ərzində ölkədə demək olar, yağış yağmayıb. Hazırkı quraqlıq 1959-cu ildən bəri ən güclü quraqlıqdır. Bu səbəbdən yayda yarana biləcək çətin vəziyyətdən yayınmaq üçün sudan istifadəyə sərt məhdudiyyətlər qoyulması gündəmə gəlib.**

## Çağatayla tərəf müqabili oldu



**Türkiyəli aktrisa Büşra Develinin yeni layihəsi bəlli olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa "Kübra" serialında rol alacaq. O, həmkarı Çağatay Ulusoyla tərəf müqabili olacaq.**

## Monika Belluççi onunla sevgilidir



**58 yaşlı məşhur aktrisa Monika Belluççi 64 yaşlı rejissor Tim Burtonla münasibətdədir.**

**Axşam.az xəbər verir ki, dörd aydır birlikdə olan cütlük ilk dəfə Fransanın "Paris Match" qəzetinin obyektivinə tuş gəlib.**

**Nəşr Belluççi və Burtonun əl-ələ tutaraq Parisdə gəzdiyi kadrı dərc edib. Qəzet onların münasibətləri ilə bağlı təfərrüatları növbəti sayda dərc olunacağını yazıb.**

**İlkin məlumata görə, onların münasibətləri ötən ilin oktyabrında Lionda keçirilən Lümyer qardaşları film festivalı zamanı başlayıb.**



# İçi qızılla dolu ayaqqabı

## Zəlzələ bölgəsinə göndərilib

**Zəlzələ bölgələrinə yardım karvanlarının axını davam edir. Zəlzələdən zərər çəkmiş insanlara Türkiyə daxilindən də, digər dövlətlərdən humanitar yardımların ardı-arası kəsilmir. İnsanların yardımlaşma cəhdləri bəzən maraqlı əhvalatlarla yadda qalır. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Trabzonda da zəlzələ bölgəsinə yardım toplama mərkəzləri fəaliyyət göstərir.**

Trabzonun Sürmənə bölgəsindən göndərilmiş yardımla bağlı isə maraqlı hadisə yaşanıb. Bölgə sakini Əhməd Akyasan zərərçəkmişlərə ailəsi ilə birlikdə bağlama göndərib. Ə.Akyasan içində ayaqqabı, gödəkçə, palto, isti geyimlər olan yardım bağlamasını mərkəzə gətirərək işçilərə təhvil verib. İyul ayında Ə.Akyasanın qardaşının toyu olmalıdır. Ailə toy üçün tədarük etdiyi 80 qram qızılı ayaqqabı qutusunda saxlayırmış. Əhmədin hərbi xidmətə qayıdan qardaşı toy üçün toplanan qızılları görmək istəyib. Ayaqqabı qutusunu tapa bilmədikdə onu da yanlışlıqla yardım bağlamasına qoyduqları məlum olub. İçində qızıl olan ayaqqabı qutusunu anaları çarpayının altında saxlayırmış. Ə.Akyasan ayaqqabının içində qızılların gizlədildiyini bilməyib. Qızılları ayaqqabı qutusunda yanlışlıqla zəlzələ bölgəsinə göndərdikləri məlum olduqda ailə başçısı Dursun Akyasan Qaziantepə gəlib. Burada yardımların cəmləşdiyi mərkəzlərə müraciət edib. Ona bildiriblər ki, bura göndərilmiş yardımlar İslahiyyə bölgəsinə göndərilib. "Bu qızılları oğlumun toyu üçün saxlayırdıq. Biz Sakarya zəlzələsini yaşamışıq. Zəlzələnin nə demək olduğunu, insanların necə əziyyət çəkdiyini bilirik. Zərərçəkmişlərə əlimizdən gələn köməyi göstərməyə çalışdıq. Oğlumun təzə ayaqqabısını da yardım bağlamasına qoyduq. Qızılların orada olduğunu bilməmişik. 80 qram külçə qızıldır. 5 ay sonra oğlumun toyudur. Qızıllar hamısı da nömrəlidi" deyən Dursun Akyasan polisə ifadə verdiklərini, qızılların tapılacağına ümid etdiyini söyləyib.



"Onlar oğlumun toy qızıllarıdır"

Məlahət



# "Qızıl oğlan" öz sirlərini açır

## Tədqiqatçılar ehtimal edirlər ki, o 2300 il bundan əvvəl 14 və ya 15 yaşında vəfat edib

**Qədim Misirdə dəfn mərasimlərinin keçirilməsi barədə informasiyalar və həqiqi sərvətlər bu yaxınlaradək Qahirədəki Misir Muzeyinin zirzəmilərində gizli şəkildə qalıb. Bunların sırasında ölkənin cənubunda yerləşən Naq əl-Hassay məzarlığında 1916-cı ildə tapılan yeniyetmə oğlanın mumiyası indiyədək tədqiq olunmayıb.**

Lakin mumiyanın kompüter tomoqrafiyası vasitəsilə bu yaxınlarda aparılan təkrar analizi zamanı məlum olub ki, onu qızıldan olan 49 amulet və digər qiymətli bəzək əşyaları, habelə qızıl maska ilə dəfn ediblər. "Grunge" nəşri qeyd edib ki, indi onu "Qızıl oğlan" adlandırırlar.

Naq əl-Hassay məzarlığı təxminən eramızdan əvvəl 332-30-cu illərə aiddir. Tədqiqatçılar ehtimal edirlər ki, "Qızıl oğlan" 2300 il bundan əvvəl 14 və ya 15 yaşında vəfat edib. Ölüm vaxtı onun sümüklərinin vəziyyəti və "ağıl" dişinin çıxmaması da bunu təsdiq edir.

Qahirə Universitetinin radiologiya üzrə professoru Sahar Salim "Qızıl oğlan" haqqında tədqiqat əsəri yazıb. O, meyitin balzamlaşdırılması prosesini də təsvir edib. Alim qeyd edib: "Balzamlayan şəxslər mumiyalama vaxtı dua edib və amuletləri mumiyanın içərisində yerləşdirərək "Ölülər kitabı"ndan hekayələr oxuyublar". O, həmçinin öz komandasının mumiyanın tədqiqi zamanı aşkar etdiyi bəzi məqamları da açıqlayıb. "Qızıl oğlan"ı qışya bürüyüblər və bunun əsas səbəbi qədim misirlilərin bəzi bitkilərin və çiçəklərin sehrli gücünə inanmaları olub.

Azərtac xarici KİV-lərə istinadla xəbər verir ki, hazırda "Qızıl oğlan" Qahirədəki Misir Muzeyinin əsas ekspozisiya zalında nümayiş etdirilir. Sərgidə, həmçinin onun kompüter şəkilləri də təqdim edilir.

## 87 işıq ili uzaqlıqda nəhəng ekzoplanet aşkarlanıb



**Astronomlar Avropa Cənub Rəsədxanasının Çilidə yerləşən Çox Böyük Teleskopunda (Very Large Telescope - VLT) quraşdırılmış SPHERE cihazından istifadə edərək AF Leporis (HD 35850) ulduz sistemində yerləşən qaz nəhənginin şəklini çəkib.**

Yerdən 87 işıq ili uzaqlıqda yerləşən ekzoplanetin ulduzu demək olar ki, Günəşin tam analoqudur.

Bu barədə Elm və Təhsil Nazirliyi N.TUSİ adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.

Tədqiqat işi ilə bağlı məqalə "Astronomy and Astrophysics" jurnalında dərc olunub və arxiv.org servisinə yerləşdirilib.

Müəlliflərin sözlərinə görə, artıq bir neçə ildir ki, Avropa Kosmik Agentliyinin "Hipparcos" və "Gaia" peykləri bizim qalaktikamızda ulduzların mövqeyini və hərəkətini dəqiq müəyyənləşdirib. Planetlərin öz ulduzlarına qravitasiya təsiri göstərərək onların trayektoriyalarını dəyişdirdikləri məlumdur. Məhz bu təhrif AF Leporis ulduzunda da müşahidə olunurdu ki, bu da onun sistemində ekzoplanetin mövcudluğunu göstərirdi.

*Qeyd edək ki, aşkar olunan planet Yupiterdən 4 dəfə böyük, kütləsi isə 4.3 dəfə massivdir. Ekzoplanet öz ulduzundan Saturn yerləşdiyi məsafədə yerləşir. Hesablamalar göstərir ki, planet indiyə kimi aşkar olunan sıxlığı ən kiçik ekzoplanetdir. Həmçinin ulduzun ətrafında Koyper qurşağına bənzər disk olduğu da qeyd edilir.*

*AF Leporis sisteminin tədqiqi davam etdirilməsi, Günəş sisteminin formalaşmasını öyrənmək üçün çox gözəl nümunədir. Çünki cəmi 24 milyon il yaşı olan bu gənc ulduz Günəşin prototipidir.*

## Braziliyada dəhşətli fəlakətdə 50 adam öldü



**Braziliyanın San-Paulu əyalətində güclü yağışların səbəb olduğu sel və torpaq sürüşmələrində ölənlərin sayı 46-ya çatıb.**

Nəbii fəlakətdə indiyədək 46 nəfərin həyatını itirdiyi, 40 nəfərin isə itkin düşdüyü qeyd olunur. Axtarış-xilasetmə işləri fasiləsiz davam edir.

Xəstəxanalarda müalicəsi davam etdirilən şəxslərdən yedisinin vəziyyəti ağırdır.